# ƏQLİ MÜLKİYYƏT

Xüsusi buraxılış 2023/ №5

# Heydər Əliyev 100



№5 / 2023

# ƏQLİ MÜLKİYYƏT

ИНТЕЛЛЕКТУАЛЬНАЯ СОБСТВЕННОСТЬ
THE INTELLECTUAL PROPERTY

## REDAKSİYA HEYƏTİ

*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri,*
*prof.* **KAMRAN İMANOV**

*Президент Евразийского Патентного Ведомства (ЕАПВ)*
ГРИГОРИЙ ИВЛИЕВ

*Академический директор Научно-образовательного центра ИС и цифровой экономики,*
проф. ИВАН БЛИЗНЕЦ

*Руководитель Секции стран Кавказа, ЦА и Восточной Европы ВОИС*
ИЛЬЯ ГРИБКОВ

*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi İdarə Heyəti sədrinin müavini*
**SƏNAN TAPDIQOV**

*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi Aparatının rəhbəri*
**XUDAYƏT HƏSƏNLİ**

*Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin direktoru*
**NƏCƏF QULİYEV**

*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi sədrinin müşaviri*
**GÜLNARƏ RÜSTƏMOVA**

*Baş redaktor*
**ƏDALƏT İSMAYİLOV**




# HEYDƏR ƏLİYEV

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan?!

# Heydər Əliyev irsi Azərbaycanın ən dəyərli əqli mülkiyyətidir



KAMRAN **İMANOV**

*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri*

***Ulu Öndər fenomenini, Heydər Əliyev böyüklüyünü, onun bütün sahələrə aid gördüyü işləri olduğu kimi tam şəkildə şərh etməkdə biz – onun müasirləri acizik və yalnız illər, qərinələr ötəndən sonra bu tarixi şəxsiyyətin vətəni, xalqı qarşısındakı xidmətlərinin əsl qiymətini zaman özü verəcək. Lakin o da bir həqiqətdir ki, Ümummilli liderimizin gələcəyimizə olan səxavəti özünü bütövlükdə yaşadığı zamana həsr etmək idi. Tarixin hökmü tarixi şəxsiyyətlərin çətinliklər və problemlər barədə izahını yox, çətinliklər və problemlər üzərində qələbəsini tanıyır. Dövlətçiliyimizin, müstəqilliyimizin mürəkkəb anlarında, ən çətin məqamlarında...***

Geniş mənada mədəniyyəti və mədəni irsi, hüququ və hüquqi ənənəni qısa müddətdə yaratmaq mümkün olmasa da, ona yalnız Heydər Əliyev kimi bir dühanın qayğısı və himayədarlığı sayəsində varis çıxmaq, qoruyub saxlamaq və zənginləşdirmək nəsib oldu. Odur ki, keçmişi izah etmək üçün ilahi vergidən, bu günü anlamaq üçün istedaddan, gələcəyi görmək üçün dahilikdən daha artıq nemətlər varisi olan Heydər Əliyev dövlətimizin digər istiqamətləri ilə yanaşı, əqli mülkiyyət sahəsinin gələcəyinin cizgilərini çəkmişdi. Mümkün əməllərin ictimai təsirini öncədən dəyərləndirmək bacarığı siyasi uğurların bünövrəsini qoyur. Millətin böyüklüyünün onun ayrı-ayrı şəxsiyyətlərinin böyüklüyünü təşkil edən keyfiyyətlərdən ibarət olmasını, tarix boyunca xalqın intellektinin ən dəyərli sərvət, əqli yaradıcılığın isə bu xəzinənin tükənməz mənbəyi olmasını görən dahi Öndərimiz müəllif hüququ və digər əqli mülkiyyət hüquqlarının qorunması, sərəncamçılığı və təmin edilməsi, bir sözlə, dövlətin bu sahədəki siyasətini ön plana çəkdi. Çünki Heydər Əliyev millətin ən dəyərli varidatı olan intellektin böyüklüyünü, onu təşkil edən keyfiyyətlər sırasında millətin nümayəndələrinin yaradıcılığını və yenilikçiliyini görürdü. Şəxsiyyətlərimizə böyük hörmət və ehtiramla yanaşan Ulu Öndər yaradıcılığı və yenilikçiliyi təbii, insan resursları kimi qiymətləndirir, onlara əqli nəticələrin mənbəyi kimi baxaraq, yalnız fərdlərin müvəffəqiyyətləri kimi deyil, ilk növbədə milli intellekt sisteminin xəzinəsini zənginləşdirən alət kimi tanıdırdı.

Zəngin mədəni irsimizi, adət-ənənələrimizi qoruyub saxlamağı, ənənəvi mədə-



> Heydər Əliyev millətin ən dəyərli varidatı olan intellektin böyüklüyünü, onu təşkil edən keyfiyyətlər sırasında millətin nümayəndələrinin yaradıcılığını və yenilikçiliyini görürdü.

ni nümunələrimizi (folkloru) və ənənəvi biliklərimizi gələcək nəsillərə çatdırmağı Ulu Öndər müqəddəs borcumuz kimi görərək, onu torpaqlarımız kimi qorumağı, keşiyində durmağı tövsiyə edirdi. Çünki Heydər Əliyev bu növ qeyri-ənənəvi əqli mülkiyyət nümunələrində Azərbaycan millətinin həm təbii-bioloji, həm də yaradıcı-mənəvi gücünün milli təbiət və torpağa bağlılığını görürdü. Çünki mədəni ənənələrimizdə Heydər Əliyev dühası "Azərbaycan ruhunun arxeologiyasını", hər birimizin və bütövlükdə etnosumuzun özünüdərketmə və özünə məxsusluğunun qüdrətli alət olmağını duyurdu, müvafiq mədəniyyətə mənsubluğun əlaqəsini görürdü.Heydər Əliyev tərəfindən daim səsləndirilən milli təfəkkür və fərdi təəssübkeşlik, etnik dərketmə və fərdi səciyyə, mənəvi dəyərlər və fərdi davranış qaydaları – Ulu Öndərin dahi düşüncəsinə görə, bütün bunlar, milli keyfiyyətlərimiz doğma yurdla, əcdadlarımız və Ana vətənimizlə qırılmaz tellərlə bağlılığının nümayişidir, təbii relyef, torpaq, ərazi və mühitlə şərtlənir, dərk olunan torpaq – təbiətdən qaynaqlanır.

Çünki dahi Öndərin düşüncələrinə əsasən, həmin etnoloji və tarixi-etnoqrafik üzvi əlaqələr: "insan – yaşadığı coğrafi məkan", "doğma torpaq – bədii şüur", "yaradıcı təfəkkür – təbiət" bizə məxsus olan qeyri-maddi mədəni irsimizdə, yeni yaradıcılıq nümunələrində öz əksini tapır.

Odur ki, Heydər Əliyevə görə, folklorumuzun və mədəni adət-ənənələrimizin qocalmaq təhlükəsi yoxdur, bunlar bizim canlı və daim yeniləşən tariximizdir, bizim elə bir keçmişimizdir ki, onsuz bu günümüzün gələcəyi yoxdur. Çünki Heydər Əliyev dühası mədəni ənənələrimizdə keçmişimizin tərəqqisini görürdü və bugünkü tərəqqimizi gələcəyin ənənəsinə çevirməyə yönəldirdi. Çünki xalqını dərindən sevən və onunla fəxr edən Heydər Əliyev bunları mədəniyyətimizin canı, Azərbaycan canının mədəniyyəti kimi təsvir edirdi.

Əqli mülkiyyəti keçmiş və gələcək irsimizin qoruyucu və həvəsləndirici aləti kimi görən dahi Öndərimiz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə müəllif-hüquq institutunun bünövrəsi qoyuldu və formalaşdı. Əslində mədəni irsin qorunub saxlanması, yayılması və zənginləşdirilməsi Öndərimizin geniş dünyagörüşünün təzahürü idi. Məhz "milli-mənəvi dəyərlərimizi qoruyub saxlayaq" - deyən və bu prinsipi azərbaycançılıq məfkurəsinə daxil edən Ümummilli liderimizin təşəbbüsü ilə 1993-cü ildə mərkəzi icra hakimiyyəti orqanı statusunda Müəllif Hüquqları Agentliyi yaradıldı, 1996-cı ildə müstəqil Azərbay-

canın ilk əqli mülkiyyət üzrə «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Qanunu qəbul olundu və beləliklə, Azərbaycanın əqli mülkiyyət sisteminin beynəlxalq səviyyəyə ucalmasına yol açıldı.

Qanunun bir incə məqamı da ondan ibarətdir ki, ictimai varidat sayılan qeyri-maddi mədəni irsimizin inciləri – ənənəvi mədəni nümunələr (folklor nümunələri) və ənənəvi biliklərin hüquqi qorunmasına şərait yaradıldı. Ulu Öndərin tövsiyələri sayəsində Avropa məkanında ilk dəfə olaraq Agentlik tərəfindən hazırlanmış «Azərbaycan folkloru nümunələrinin qorunması haqqında» Qanun layihəsi Milli Məclisdə 2003-cü ildə qəbul edildi və Heydər Əliyev tərəfindən imzalandı. 2002-ci ildə «İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında» Qanun qüvvəyə mindi, sadalanan qanunların icrasını təmin edən mükəmməl mexanizmlər yaradıldı.

Odur ki, Ulu Öndər milli əqli mülkiyyət sistemimizin Müəllifi və Yaradıcısıdır. Odur ki, Heydər Əliyevin uzaqgörən fikir və düşüncələri bizim bugünkü cəmiyyətimizin ictimai rəy və varidatına çevrilib.

Xalqımızın tarix boyu yetişdirdiyi bu ən qüdrətli şəxsiyyətin bütün istiqamətlərdə gördüyü əvəzsiz işlərdən biri Azərbaycanın formalaşmış və xarici dövlətlər tərəfindən tanınmış milli əqli mülkiyyət sistemidir. Odur ki, Heydər Əliyevin irsi Azərbaycanın ən dəyərli əqli mülkiyyətidir.

Heydər Əliyevin uzaqgörənliyinin nəticəsidir ki, Azərbaycan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Bern Konvensiyası, Cenevrə Konvensiyası, Roma Konvensiyası, İnternet müəllif-hüquq müqavilələrində və digər mötəbər beynəlxalq təsisatlarda və qurumlarda fəal iştirak edir, ÜƏMT-nin diplomatik konfranslarında rəhbər orqanlara seçilir. Heydər Əliyev müəllif-hüquq qanunvericiliyinin əsas prinsiplərini formalaşdıraraq yaxşı görürdü ki, sovet dövründən qalmış qanunvericiliyin reallıqları yeni siyasi və iqtisadi şəraiti tənzimləməyə qadir deyildir.

Çünki Heydər Əliyev dühası sovet müəlliflik hüququnu inzibati-amirlik sisteminə xidmət edən, müəlliflərin xeyrindən daha çox onların mənafeyinə zidd olan “əsərlərdən istifadə hüququ”, yaradıcılığa sipər çəkən amil kimi təsəvvür edirdi. Ulu Öndər yaradıcılıq sərbəstliyi və dövlət müdaxiləsi arasında olan qeyri-bərabər vəziyyəti uçuraraq, “müəllif öz

> Heydər Əliyev qeyri-ənənəvi əqli mülkiyyət nümunələrində Azərbaycan millətinin həm təbii-bioloji, həm də yaradıcı-mənəvi gücünün milli təbiət və torpağa bağlılığını görürdü.



əsərinin sahibkarı yox, ancaq müəllifidir” prinsipinin dağıdılmasının təşəbbüskarı oldu. Onun göstərişləri nəticəsində sovet müəllif hüququnun iki ən vacib – “əmlak hüququnun verilə bilməməsi” və “qonorarın ödənilməsi və ya ödənilməməsi şərti ilə əsərlərdən sərbəst istifadə” ehkam-postulatı rədd edildi. Əgər müəlliflik hüququnun birinci sovet ehkamı müəllifə məxsus olan müəllif-hüquq dairəsini “kəsirdisə”, ikinci ehkam “kəsilmiş” hüquq dairəsinə daxil olmağa “icazə verirdi”. Heydər Əliyev müəlliflərə və yaradıcı şəxslərə onların şəxsi hüquqları ilə yanaşı, əmlak (iqtisadi) hüquqlarını da qaytararaq yaradıcılığın həvəsləndirilməsinə, mədəni irsin zənginləşdirilməsinə əsas yaratdı. Müəllifin iradəsinin muxtariyyətini bərpa etdirərək və əsərdən istifadəyə müəllif icazəsini ön plana çəkdirərək gələcək müəlliflik hüququna əsaslanan “mədəni (kreativ)” sənayenin təməl daşını qoydu.

Həmçinin Sovet patent sistemində də yaradıcının sıxılması haqqında söyləmək olar. İxiraçı paten hüququnun sahibi deyildi, o yalnız ixtiraçı idi və heç təsadüfi deyildi ki, o zamankı qanunvericilik patent haqqında yox, ixtiraçı fəaliyyəti haqqında söhbət açırdı. Patent hüququ dövlətdə qalmaqla ixtiraçıya ixtira şəhadətnaməsi verilirdi. Bu isə o deməkdir ki, onun yalnız şəxsi, qorunan ixtiranın müəllifi olması tanınırdı, lakin əqli mülkiyyətə heç bir sərəncamçılıq verilmirdi və onun istifadəsi yaradan şəxsdən kenar keçməli idi. Əvəzində isə 50 rubl məbləğində kompensasiya təqdim edilirdi. Bu xoşagəlməz vəziyyəti Ulu Öndərin uzaqgörənliyi aradan qaldırdı, patent haqqında qanun qəbul edildi və ixtiraçının hüquqları bərpa olunmaqla, yenilikçiliyə, innovasiyaya yol açıldı.

Heydər Əliyev hesab edirdi ki, ixtiraçılıq və yaradıcılıq fəaliyyətinin həvəsləndirilməsi sivil, demokratik cəmiyyətin vacib atributlarındandır, yaradıcılığın stimullaşdırılması və əqli mülkiyyət nəticələrinin qorunması bilavasitə insanların hüquq və azadlıqlarının qorunması ilə bağlıdır.

Ümummilli liderimizin əqli mülkiyyət sahəsində uzaqgörənli-



Heydər Əliyevə görə, folklorumuzun və mədəni adət-ənənələrimizin qocalmaq təhlükəsi yoxdur, bunlar bizim canlı və daim yeniləşən tariximizdir, bizim elə bir keçmişimizdir ki, onsuz bu günümüzün gələcəyi yoxdur.

Odur ki, dövlətimiz bugünkü müəlliflik və patent hüququnda mülkiyyət çərçivəsini qorumaqla sanki yaradıcı dühaların alovlanma marağını yanacaq vasitəsilə dəstəkləyir.

Öndərimiz öncədən görürdü ki, əqli mülkiyyət institutunun yaranması və fəaliyyət göstər-

yini nümayiş etdirən maraqlı bir fakta nəzər salaq. Müəllif hüququ sistemi yaradılarkən elə bir paradoksal zaman idi ki, əqli mülkiyyət hüquqlarından istifadəyə icazənin alınması əqli mülkiyyət tərkibli malların alınmasından daha ucuz idi. Bu elə bir dövr idi ki, əmtəə-

nin maya dəyərində müəllif hüququ və digər əqli mülkiyyət hüquqlarının çəkisi ölkədə yalnız 10 faiz idi. Ümummilli liderimiz yeni bazar şərtləri əsasında işləməyi və sivil inkişafa əngəl törədən köhnə sosial-iqtisadi sistemin qalıqlarını aradan götürmək alətlərindən biri olan müəllif-hüquq sisteminin yaradılmasını zamanın tələbi sayırdı. Məhz dahi Öndərimizin təşəbbüsü ilə ilk dəfə olaraq Konstitusiyamızın 30-cu maddəsində müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları təsbit olundu və gələcək qanunların qəbul edilməsinə əsas yarandı.

Yeni mülkiyyət münasibətləri yaradılarkən bunu da görmək lazım idi ki, «əqli mülkiyyət» maddi mülkiyyətdən heç də az əhəmiyyət daşımır. Rəqəmli texnologiyalarda, elektron ticarətdə əqli mülkiyyətin müasir rolunu görmək zamanın tələbi idi. Çünki bu gün mütəxəssislərin fikrinə əsasən, əqli mülkiyyət maddi mülkiyyətdən daha fəaldır və hətta əqli mülkiyyətin müəssisə və firmalarda aktivlər çərçivəsində aparıcı nisbəti həmin istehsalçıların iqtisadi dəyərini və ticarət imicini bir neçə dəfə artırır.

Onu da görmək lazım idi ki, bugünkü iqtisadiyyat artıq betona və dəmirə əsaslanmır, "biliklərə əsaslanan iqtisadiyyata", "kreativ iqtisadiyyata" çevrilib və bu iqtisadiyyatda aparıcı rolu əqli mülkiyyət oynayır. Heydər Əliyevin izləri gələcəyə yol açdı. Odur ki, əqli mülkiyyətə və onda əsas valyuta kimi cəmlənən "intellektual kapital"a doğru yolumuz açıqdır. O illərdə dövlətimizin başçısı Azərbaycanın iqtisadi inkişafını planlaşdıraraq, əqli mülkiyyətin sosial-iqtisadi siyasətə inteqrasiya olunmasını və əqli mülkiyyət sisteminin istifadəsi ilə əqli fəaliyyət nəticələrinin müvəffəqiyyətlə qorunması və kommersiyalaşdırılmasının ölkələrə nəzərə çarpan fayda və üstünlüklər gətirdiyini də nəzərə alır və mədəni sənayenin inkişafını öncədən görürdü. Bu gün Azərbaycan iqtisadiyyatının dünyada baş verən trendlərə, çağırışlara, yeniliklərə hazırlığı, reaksiya verməyi, mənimsəməsi və öz növbəsində Əqli Mülkiyyət Agentliyinin də bu proseslərdə uğurla iştirak etmə qabiliyyətinə malik olması Ulu Öndərin uzaqgörən siyasətinin nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyev və Ümumdünya İqtisadi Forumunun prezidenti tərəfindən 2020-ci ildə imzalanan Niyyət protokolu əsasında Azərbaycanda dünyanın gələcək inkişafını müəyyən edən Dördüncü sənaye inqlabı üzrə İqtisadiyyat Nazirliyinin tərkibində 2021-ci ildə Təhlil və Koordinasiya Mərkəzinin təsis edilməsi və Əqli Mülkiyyət Agentliyinin bu konsepsiyanın strategiyasında fəal iştirakı (Agentliyin nəzdində Texnologiyalar trnasferi və kommersiyalaşma mərkəzi yaradılmışdır) yuxarıda qeyd olunanların bariz nümunəsidir.

Məhz bu uzaqgörənliyin nəticəsidir ki, Azərbaycan sosial-iqtisadi planda sürətlə inkişafını davam etdirir və bütün beynəlxalq statistikalar onu göstərir ki, Azərbaycan artıq inkişaf etmiş ölkələr sırasına daxil olma üzrədir, çünki məhz Heydər Əliyevin qoyduğu təməl daşları sayəsində Azərbaycan fəal iqtisadi və institusional islahatlar ölkəsinə çevrilib və fəxrlə qeyd etmək istəyirəm ki, Əqli Mülkiyyət Agentliyi bu islahatların bəhrəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dediyi kimi: "Azərbaycan dünya miqyasında heç vaxt tarixdə bu günə qədər analoqu olmayan inkişaf templərini göstərir. Bunu bütün statistik göstəricilərdə də hər kəs görə bilər".

Məhz Heydər Əliyev zəkası Azərbaycan iqtisadiyyatının dirçəlişi və inkişafı üçün böyük miqdarda sərmayələrin tələb olunduğunu görərək, həmin investisiyalarının təhlükəsizliyinin təmin edilməsi, habelə bunların əqli mülkiyyət hüquqlarının qorunma səviyyəsi arasındakı sıx əlaqəsi barədə düşünürdü. Müəlliflik hüququnun, əqli mülkiyyətin ikili təbiəti, onun aparıcı olan mədəni əhəmiyyəti ilə yanaşı, iqtisadi rolu, əqli mülkiyyət-informasiya texnologiyaları (ƏM-İT) körpüsünü yaradaraq, rəqəmsal iqtisadiyyatda vacib faktora çevrilməsini görürdü.

Qeyd edək ki, o zamanlar Azərbaycanda İnternetə qoşulmuş kompüterləri barmaqla saymaq olardı. Ümumiyyətlə, 1996-cı ildə bütün dünyada

İnternetə qoşulmuş kompüterlərin sayı cəmi 16 milyon idi, hazırda isə bu rəqəm yüz milyonlarla ölçülür. Yeni şəraitdə elektron ticarət getdikcə daha güclü rol oynayır. İnternet şəbəkəsinə yerləşdirilmiş informasiyaların əksər çoxluğu müəlliflik hüququ və əlaqəli hüquqlarla qorunur, daha çox satılan dörd məhsul növündən üçü müəlliflik hüququ və əlaqəli hüquqların obyektləridir. Bunlar göstərir ki, Ümummilli liderimiz illər öncə informasiya texnologiyalarının və əqli mülkiyyətin iqtisadi inkişafdakı rolunu, müasir rəqəm şəbəkələrinin virtual bazara çevrilməsini də nəzərə ala bilmişdir. Odur ki, bu gün Əqli Mülkiyyət Agentliyinin nümayəndələri rəqəmli hüquqlar üzrə beynəlxalq ekspert qismində çıxış edirlər. 2010-cu ildə ÜƏMT-nin əqli mülkiyyət üzrə nüfuzlu mütəxəssislərin II Qlobal Simpoziumunda MDB ölkələrindən ilk dəfə olaraq 190-dan artıq dövləti təmsil edən 300 nəfərədək rəhbər nümayəndələr qarşısında Azərbaycanın müəllif-hüquq sisteminin təcrübəsi və nailiyyətləri barədə prezentasiya edilmiş, həmçinin 2012-ci ilin noyabr ayında Birləşmiş Millətlər Təşkilatının Bakıda keçirdiyi İnternetin İdarəçiliyi üzrə Qlobal Beynəlxalq Forumda təşkilatçıların dəvəti əsasında Şərqi Avropa ölkələrinin təmsilçisi kimi müəlliflik hüququ və İnternet mövzusunda çıxış edilmişdir. Azərbaycanın müəllif-hüquq




Heydər Əliyevin uzaqgörənliyinin nəticəsidir ki, Azərbaycan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Bern Konvensiyası, Cenevrə Konvensiyası, Roma Konvensiyası,Paris Konvensiyası İnternet müəllif-hüquq müqavilələrində və digər mötəbər beynəlxalq təsisatlarda və qurumlarda fəal iştirak edir, ÜƏMT-nin diplomatik konfranslarında rəhbər orqanlara seçilir.

qanunvericiliyi bütün müasir tələblərə cavab verməklə İnternetdəki proseslərə uyğunlaşdırılıb, "rəqəmli hüquqları" tanıyır və elektron kommersiyaya aid qanunda əqli mülkiyyət hüquqlarının qorunması öz təsbitini tapmışdır. Agentlikdə hazırlanan "Online" qeydiyyat sisteminin məlumat bazasındakı əsərlərin sayı 15 minə yaxınlaşıb, ötən illər ərzində folklor üzrə rəqəmli elektron kitabxananın yaradılması və zənginləşdirilməsi işi davam etdirilmişdir.

Biz hər addımda Azərbaycanın müəllif-hüquq sistemini irəli aparan Heydər Əliyevin izləri ilə rastlaşaraq, onun ideyaları ilə bəhrələnir, müvafiq işlər görməyə, yeni nəticələrə nail oluruq. Çünki Ulu Öndər ideyalar sahibi idi və onun ideyaları bu gün hamımızın bəhrələndiyi ideyalardır.

Heydər Əliyev kimi siyasətçi üçün xalqa verilən vədlər öhdəliklərə çevrilirdi. Bunun bariz nümunəsi cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilən müasir varislik siyasətidir. Çünki əsl dövlət müdrikliyi qorunub-saxlanma meylləri ilə yeniləşdirmə və zənginləşdirmənin vəhdətini təşkil edir.

Son illər beynəlxalq fenomenə çevrilmiş əqli mülkiyyət hüquqları sahəsindəki yeni çağırışlarla əlaqədar, cənab Prezident İlham Əliyevin səyi və dəstəyi nəticəsində müvafiq islahatlar keçirilir, qanunvericilik və normativ hüquqi baza daha da zənginləşdirilib və yeniləşdirilir, bu sahənin çevik idarəetmə sistemində idarəçilik funksiyalarının təkmilləşdirilməsi, kadrların peşəkarlıq səviyyəsinin artırılması üzrə işlər davam etdirilir. Cənab Prezidentin göstərişləri və qarşımıza qoyduğu vəzifələr əqli mülkiyyətin dünya iqtisadiyyatındakı yeni mahiyyətindən irəli gəlir.

XX əsrin sonunda yaranmış «yeni iqtisadiyyat»ı informasiya cəhətdən silahlanmış zəkalı, intellektual investor və istehlakçılardan ibarət iqtisadiyyat kimi təsvir etmək mümkündür. «Yeni iqtisadiyyatın» əsas xüsusiyyətlərindən biri İKT bazarına artan tələbatdır. Bu iqtisadiyyatın digər xüsusiyyəti odur ki, kommersiya əhəmiyyətinə malik əqli mülkiyyət obyektlərinə də tələbat sürətlə artmağa başlamışdı. Bəllidir ki, əqli mülkiyyət də xüsusi informasiya örtüyünü tələb edir.

Beləliklə, «yeni iqtisadiyyat» betona və dəmirə əsaslanan iqtisadiyyatı əvəzləyərək, XXI əsrdə «biliklərə əsaslanan iqtisadiyyata» çevrildi və yeni xüsusiyyətlərlə zənginləşərək «biliklərin kapitallaşdırmasını» təsdiqlədi.Bu isə əqli mülkiyyət fenomenini ön plana çəkərək, onun qorunması, idarə olunması və təminatı məsələlərini dövlət siyasətinin prioritet istiqamətləri sırasına daxil etdirir. Çünki əqli mülkiyyət qüdrətli iqtisadi inkişaf alətidir və biliklərə əsaslanan iqtisadiyyatda cəmlənən intellektual kapital əsas valyuta rolunda çıxış edir.

Kreativ sənayenin ölkəmizin ÜDM-də əhəmiyyətinin davamlı olaraq yüksəlməsi ilə əlaqədar və məsələnin vacibliyi nəzərə alınaraq, "Müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan istehsalın (kreativ sənayenin) ümumi daxili məhsulda iqtisadi payının hesablanması və qeyri-maddi aktivlərin qiymətləndirilməsi" haqqında Nazirlər Kabinetinin Qərar layihəsi hazırlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqları əsasında "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanuna ÜƏMT-nin "Müəlliflik hüququna dair" və "İfalara və fonoqramlara dair" müqavilələrinin (bu müqavilələr ÜƏMT-nin İnternet müqavilələri kimi tanınır), həmçinin Avropa İttifaqının müvafiq direktivlərinin müddəaları nəzərə alınmaqla rəqəmli hüquqlara dair konkret normaları ehtiva edən müvafiq dəyişikliklər edilmişdir. Folklor nümunələrindən müxtəlif üsullarla, o cümlədən İnternetdə istifadə olunarkən onların təbii mahiyyətinin dəyişdirilməsi və başqaları tərəfindən mənimsənilməsi hallarının qarşısının alınması məqsədi ilə "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Qanuna dəyişikliklər edilmiş, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanun qəbul edilmişdir.

Qeyd olunan Qanunun qüvvəyə minməsi ilə piratçılıqla mübarizə sahəsində ölkəmiz-

də yeni mərhələ başlanmışdır. Qanun Azərbaycan Respublikasının ərazisində piratçılığa qarşı mübarizənin gücləndirilməsi məqsədilə müəlliflik hüququnun obyekti olan əsərlərin, fonoqramların, xüsusi qorunma hüququ ilə qorunan məlumat toplularının və digər əqli mülkiyyət hüququ obyektlərinin, yaxud tərkibində əqli mülkiyyət hüququnun obyektləri olan malların nüsxələrinin hər birinə xüsusi seriya və nömrəsi olan nəzarət markası vurulması, həmçinin əqli mülkiyyət hüquqları obyektlərinin rəqəmli kodlaşdırılması ilə bağlı məsələlərin tənzimlənməsini təmin edir.

Beləliklə, Ulu Öndər tərəfindən bünövrəsi qoyulan və dövlət başçısı cənab İlham Əliyevin layiqli düşünülmüş davamçılıq siyasətinin nəticəsi kimi, beynəlxalq ekspertlərin rəyinə əsasən, hazırda Azərbaycan MDB və Şərqi Avropa məkanında ən zəngin qanunvericilik bazasına və təkmil idarəetmə sisteminə malik olan ölkələrdən biridir. Ümumiyyətlə, əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə ölkəmizdə həmişə prioritet istiqamətlərdən olmuşdur. Bununla əlaqədar qəbul edilmiş “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” yeni Qanunun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə Agentliyinin tabeliyində “Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi” fəaliyyətə başlamışdır. Agentliyin müvafiq qaydada müraciəti əsasında Mərkəzin ÜƏMT-nin Əqli Mülkiyyət Akademiyasının Qlobal Şəbəkəsinə qoşulması onun fəaliyyətinin səmərəliliyinin artırılması, digər ölkələrin əqli mülkiyyət institutları və təlim mərkəzləri ilə əməkdaşlığın qurulması və bu sahədə təcrübə mübadiləsi sahəsində yeni perspektivlər açmışdır. Mərkəzin və onun nəzdində rəqəmli hüquqların on-line monitorinqi və lisenziyalaşdırma xidmətinin yaradılması üzrə Azərbaycanın təşəbbüsü ÜƏMT-nin rəhbərliyi və ekspertləri tərəfindən müsbət qarşılanmışdır.

Mərkəz əqli mülkiyyət sahəsində çalışan mütəxəssislərin ixtisas biliklərinin artırılması üçün treninqlər keçirilməsində, ölkədə piratçılığın səviyyəsinin aşağı salınması üçün beynəlxalq təcrübə əsasında təkliflər və sahə üzrə proqnozlar hazırlanmasında baza kimi istifadə olunur, burada həmçinin əqli mülkiyyət üzrə ixtisaslaşmış vəkillərin hazırlanması, gənc hüquqşünaslara məsləhətlərin verilməsi və Əsasnaməsinə uyğun digər işlər görülür.

Fəaliyyətimizin yeni istiqamətlərini yüksək beynəlxalq standartlar səviyyəsində həyata keçirmək məqsədi ilə Avropa İttifaqı ilə Tvinninq layihəsi çərçivəsində əməkdaşlıq qurulub və bu çərçivədə keçirilən tədbirlərdə Avropa İttifaqı ölkələrinin 50-yə yaxın əqli mülkiyyət üzrə təcrübəli mütəxəssisləri və əqli mülkiyyət sahəsində ixtisaslaşmış hakimləri prezentasiyalarla çıxışlar etmişlər.

İnfrastrukturun təkmilləşdirilməsi və institusional dəyişikliklər sahəsində Agentlikdə yaradılan sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı ilə bağlı iddia sənədlərinin qəbulunun həyata keçirildiyi “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” (PƏNAH) rəqəmli informasiya sistemi xüsusi olaraq qeyd olunmalıdır. Bu sahədə tətbiq edilən “vahid pəncərə” və “istənilən yerdən xidmətə əlçatanlıq” prinsipi açıqlıq, operativlik və şəffaflığı təmin etmiş, ixtira və patent fəallığının artmasına müsbət təsir göstərmiş, həmçinin dövlət xidmətlərinin səviyyəsini yüksəltmişdir. İnfrastrukturun yeni layihələri sırasında yaradılmış “Çağrı mərkəzi”nin fəaliyyəti əqli mülkiyyət obyektləri, o cümlədən sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində göstərilən xidmətlərin keyfiyyətinin, habelə ixtira və patent fəallığının daha da artmasına müsbət təsirini göstərmişdir. Həmçinin ÜƏMT-nin tövsiyələri əsasında Azərbaycanın Əqli Mülkiyyət Sahəsinin Uzunmüddətli Milli Strategiyasının layihəsinin təkmilləşdirilməsi üzrə işlər davam etdirilmiş, bu prosesdə həmçinin MDB ölkələrinin əqli mülkiyyət sahəsində təcrübəsindən istifadə olunmuşdur. Hazırda sənəd layihəsi rəy və təkliflərin bildirilməsi üçün əqli mülkiyyət üzrə beynəlxalq ekspertlər tərəfindən öyrənilir.

"Mən dəfələrlə demişəm və təkrar edirəm ki, biz informasiya hücumuna keçməliyik". Ölkə başçısının bu sözlərinə əməl edərək Agentlik erməni oğurluqlarına qarşı müdafiə mövqeyindən imtina edib, hücum mövqeyini seçmişdir.

Tarixən ermənilərin intellektual və maddi mədəniyyət oğurluqları, tarixi-coğrafi uydurmaları və saxta tarix formalaşdırmaları artıq bir ənənəyə çevrildiyi üçün bunlara qarşı geniş cəbhədə mübarizə aparılması zərurəti yaranmışdır. Xalqımız üçün taleyüklü bu məsələdə Ulu Öndərin 1998-ci ildə imzalandığı «Azərbaycanlıların soyqırımı haqqında» sənədin hədsiz böyük əhəmiyyəti olmuşdur. Həmin Fərmanla 31 mart tarixi Azərbaycanlıların soyqırımı Günü elan edildi və bununla ilk dəfə olaraq, rəsmi dövlət sənədində «böyük Ermənistan» xülyası ifşa edilərək, Azərbaycan xalqına qarşı yeridilən fiziki və mənəvi terror, torpaqlarımızın zəbt edilməsi və tariximizin saxtalaşdırılması, mədəni irsimizin mənimsənilməsi beynəlxalq ictimaiyyətə çatdırıldı. Fərmanın icrası ilə bağlı müəyyən edilmiş geniş tədbirlər çərçivəsində erməni uydurmalarının ifşa edilməsi üzrə genişmiqyaslı işlər görülür, tədqiqatlar aparılır.

Bəllidir ki, mədəniyyətlərarası mübadilə və qarşılıqlı zənginləşmə öz əksini millətin həyat tərzində və birgə yaşayış bacarığında tapmalıdır. Böyük fəlsəfəçi alim, Nobel mükafatı laureatı Fridrix fon Xayekin sözləri ilə desək, «İnsanları cəmləşdirən, həyatını mümkün edən onların fəaliyyətinin nizamlanmasıdır, vərdişlərinin düşünülmüş qayda-qanunlarla əvəz edilməsi və hüquqi normalara riayət edilməsidir». Siyasi mifologiya və tarixi uydurmalar, digər xalqların torpaqlarına və mədəni irsinə iddialar, etnik təmizlənməyə və ksenofobiyaya çağırışlarla dolu kitablar mədəni mübadilənin, qarşılıqlı zənginləşmənin əksinə işləyir. Bədnam qonşularımızın millətçi müəllifləri tərəfindən yazılan kitablar bu qəbildəndir. Burada məşhur Lixtenberqin sözlərini xatırlatmaq istəyirəm: «İnsanlar necədirlərsə, yazdıqları kitablar da elədir».

Dövlət başçımız cənab İlham Əliyevin qeyd etdiyi kimi, «Təcavüzkar erməni millətçiləri xalqımıza qarşı iki yüz ilə yaxın bir müddətdə soyqırım siyasəti həyata keçirmişdir. Azərbaycanlıları tarixi torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə mifik «böyük Ermənistan» yaratmaq məqsədi ilə Azərbaycan və türk xalqları on illər boyu müntəzəm surətdə ermənilərin ideoloji, hərbi və mədəni təcavüzünə məruz qalmışdır. Xalqımızın tarixi kobud surətdə saxtalaşdırılmış, mədəniyyətimiz, toponimlərimiz ermənilər tərəfindən özününküləşdirilmişdir...».

Azərbaycan xalqının mədəni irsinin yüz illər boyunca ermənilər tərəfindən «Gəldim, gördüm,... mənimsədim» sxemi üzrə oğurlanması onların torpaqlarımıza olan ərazi iddiaları ilə sıx bağlıdır. «Böyük Ermənistan» haqqında mifin reanimatorlarının niyyətləri kifayət qədər aydındır: gəlmə etnos olan ermənilər onlara məxsus olmayan torpaqlara aid ərazi iddialarının «əsaslandırılmasını» həmin torpaqların həqiqi sakinlərinə məxsus olan maddi və qeyri-maddi irsin qavranılması, mənimsənilməsi və erməniləşdirilməsi ilə əlaqələndirirlər. Ermənilərin əqli və maddi-mədəni oğurluqları tarixi-coğrafi uydurmalarla, özlərinə yalançı tarix formalaşdırmaqla və əlbəttə ki, Azərbaycanın və bütövlükdə bölgənin tarixini təhrif etməklə «dada gətirilir».

Görkəmli tarixçi və coğrafiyaşünas, etnologiya elminin banisi L.Qumilyovun sözləri ilə desək, "belə bir ifadə var: İndiyə sahib olan keçmişin sahibidir, keçmişə sahib olan –



> Ulu Öndərin dediyi kimi, “Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar”a biz “qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir”ik.

gələcəyin sahibidir”. Dərindən düşünəndə çox dəhşətli kəlamdır, xüsusən onun praktikada tətbiqi çox qorxuncdur. Səbəb və nəticə yerini dəyişir və tarix gəzəyən qıza, misalların məbləğinə çevrilir – onunla nəyi istəyirsən əsaslandır..., çox halda tarixə mif daxil edirlər, axı mif – uydurmadır, yalandan da pisdir. Bizi faktiki tarixi və faktları deyil, onun mifik şəkildə dərk edilməsini öyrənməyə məcbur edirlər. Tarix ..., yalan məlumat verməyə başlayır... Bəzən tarixdən mənəvi fayda almağa cəhd edərək, ondan birbaşa səmərə tələb edirlər. Onda isə maddi iddialar, millətçi ambisiyalar tarixlə əsaslandırılır... Ondan (tarixdən) bütün mifoloji cəfəngiyatı, öncədən məlum olan yanlış fikrə əsaslanmanı və keyfiyyətcə qiymətləndirməni tullamaq lazımdır”. Həqiqətən, erməniçiliyin bugünkü tarixi uydurmalarına münasibətdə bu sözlər çox aktual səslənir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev informasiya və əks-təbliğat işinin qurulmasında dünya ictimaiyyətinin və siyasi dairələrin diqqətini erməniçilik amilinin nəzərə alınmasına cəlb etmək üçün daha genişmiqyaslı və müntəzəm tədbirlərin həyata keçirilməsinə çağırmış, yalnız Azərbaycan xalqının müdafiəsi naminə deyil, bütövlükdə saxta erməni təbliğatını ifşa etmək vəzifəsi qoyulmuşdur: “Mən dəfələrlə demişəm və təkrar edirəm ki, biz informasiya hücumuna keçməliyik”. Ölkə başçısının bu sözlərinə əməl edərək Agentlik erməni oğurluqlarına qarşı müdafiə mövqeyindən imtina edib, hücum mövqeyini seçmişdir. Beləliklə, saxtalaşdırma yolu ilə qonşularının hesabına «böyük Ermənistan» və «böyük erməni mədəniyyəti» xül-

30 il ərzində Ulu Öndərin uzaqgörənliyi və cənab Prezident İlham Əliyevin islahatları sayəsində Agentlik dünyanın sivil tələblərinə və standartlarına uyğun, Copyright, patent və digər əqli mülkiyyət sahələrini vahid "çətir" altında birləşdirən daha mükəmməl və müasir bir quruma çevrilmişdir.




yası ilə yaşayanlara məşhur ingilis fəlsəfəçisi və hüquqşünası ideoloji liberalizmin və analitik liberal hüquq məktəbinin banisi Ceremi Bentamın XVIII əsrdə dediyi sözləri xatırlatmaq yerinə düşər: «Prinsiplərə riayət etməkdən imtina edən xalqlar gec-tez gücə tabe olmalıdırlar». Ulu Öndərin dediyi kimi, "Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar"a biz "qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir"ik. Erməni plagiatçılığına qarşı mübarizə Agentliyin fəaliyyətində həmişə aparıcı yerlərdən birini tutmuşdur. Bununla əlaqədar hər il erməni oğurluqları barədə silsilə tədbirlər keçirilir, kitablar və broşuralar nəşr olunur, kütləvi informasiya vasitələrində müntəzəm olaraq materiallar dərc edilir, erməni plagiatçılığı mövzusunda konfrans və simpoziumlar keçirilir. Azərbaycan, rus və ingilis dillərində internetdə yayımlanmış konfranslarda edilən prezentasiyalarda erməni ədəbi oğurluqlarını ifşa edən faktlar barədə geniş ictimaiyyətə məlumatlar verilmişdir. Agentliyin əməkdaşlarının iştirak etdikləri bütün beynəlxalq tədbirlərdə də erməni oğurluqları barədə geniş məlumat verilir, həmçinin erməni plagiatını ifşa edən materiallar, xüsusən Heydər Əliyev Fondu tərəfindən hazırlanmış dərin məzmunlu zəngin təbliğat materialları paylanır, yüz illər boyunca Azərbaycanın zəngin mədəni irsinin, xüsusən söz, musiqi, mahnı və musiqili rəqs folklorunun və s. mədəni irs nümunələrinin ermənilər tərəfindən mənimsənilməsi və dünya ictimaiyyətinə öz yaradıcılıq nümunələri kimi təqdim olunması, həmçinin milli mətbəximizin reseptlərinin, xörəklərimizin adlarının, xalçatoxuma ənənələrinin və azərbaycanlılara məxsus bir çox digər ənənəvi biliklərin də erməni plagiatına məruz qalması barədə geniş məlumat verilir.

Azərbaycanın bugünkü müasir müəllif-hüquq, əqli mülkiyyət sisteminin təməl daşı Ulu Öndər tərəfindən qoyulmuş və cənab Prezident İlham Əliyevin səyi və dəstəyi nəticəsində dünyanın sivil tələbləri və standartlarına uyğun olaraq inkişaf etdirilmişdir. Təsəvvür edin, 1993-cü ildə Ümummilli liderimizin təşəbbüsü ilə mərkəzi icra hakimiyyəti orqanı statusunda yaradılan Müəllif Hüquqları Agentliyi 30 il ərzində əqli mülkiyyət hüquqlarının qorunması və təminatı sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı qəbul edilən bir Qanun, cənab Prezident tərəfindən imzalanmış dörd fərman və Nazirlər Kabinetinin dörd Qərarı və üç Sərəncamı əsasında dünyanın sivil tələblərinə və standartlarına uyğun, Copyright, patent və digər əqli mülkiyyət sahələrini vahid "çətir" altında birləşdirən daha mükəmməl və müasir bir quruma çevrilmişdir.

**Yüzillik yubileyini fəxrlə qeyd etdiyimiz Ümummilli lider Heydər Əliyevin zəkasının qüdrəti onun saldığı kölgənin bugünkü böyüklüyü ilə ölçülür. Dahi şəxsiyyətimizin ədalətinin də, həqiqətinin də ruhu həmişə eyni olmuşdur.**

# TALEYİN EŞQİ



ƏDALƏT
**MƏDƏDOĞLU**
*Baş Redaktor*

**Əminliklə, rahatlıqla bugünümüzə və gələcəyə baxan, müasir dünyamızda baş verən sarsıntılı hadisələrin bizə minimal təsirinə inanan bir millətə çevrilməyimiz, nikbinliyin mentalitetimizə sirayət etməsi nəyə, hansı amillərə əsaslanır? On il, on beş il əvvəl bizdə qürur və sevinc hissi yaradan (ölkədə və ya ölkəmizlə bağlı dünyada baş verən) hadisələrə artıq vəcdlə deyil, daha rahat, nailiyyətlərə gündəlik həyatımızın sıradan bir hadisəsi kimi tox gözlə baxmağı öyrəndik. Bir millət kimi, sözün müsbət mənasında, dikbaş və qürurlu olmağı bacardıq.**

Bu gün ideyalar dünyanı idarə edir, lakin Azərbaycanda baş verənlər ideya mövcudluğunun nailiyyəti deyil. Müasir dünyamızda ideya mahiyyəti xalqın müxtəlif seçkin təbəqələrinə aiddir, bir çoxları üçün anlaşılan və qavranılan deyil. Bizdə olan, davranışımızı dəyişən güc dərk olunan yox, illərdir içimizdə böyüyən və bərkiyən təhtəlşüur bir fenomendir ki, o, geniş kütlələri əhatə edən, qucaqlayan, birləşdirən hissin təzahürüdür. Bu hissin adı inamdır, tarixi müqəddərata, dövlətçilik taleyimizə inam. Tale duyğusu azad iradə seçiminə və subyektiv məna axtarışına təkan verən, ənənələrə dayanan, gələcəyə böyük ümidlər bəxş edən, daxili səsimizə “heç şübhəsiz ki, bu doğrudur, belə də olmalıdır” dedirdən möhtəşəm bir anlayışdır. SSRİ-də M.Qorbaçovun hakimiyyətə gəlməsi, ümummilli lider Heydər Əliyevin Kremldən uzaqlaşdırılması, 20 yanvar, millətlərarası münaqişələrin baş verməsi, nəhəng ölkənin dağılması və bu prosesləri müşayiət edən digər hadisələrin nə tarixi qanuna uyğunluqla, nə də ki bir ideya mövcudluğu ilə əlaqəsi var idi. O proses niyyəti bizə hələ aydın olmayan, amansız bir məcburiyyət kimi kənardan üstümüzə yürüyən bir tale idi. Az qala bizi bir-birimizə, Vətənimizə bağlayan iplər qopacaqdı, böyük depressiyada qərq olacaqdıq, vətəndaşlıq



Xalqın milli taleyi dəyişə biləcək qüvvənin varlığını hiss etməsi nəticəsində Heydər Əliyev hakimiyyətə gəldi və müqəddəratımız öz əlimizə alındı.

laqeydliyinin içində boğulacaqdıq, lakin tariximizin o mürəkkəb dövründə ziyalılarımızın şüurlu seçimi və xalqın milli taleyi dəyişə biləcək qüvvənin varlığını hiss etməsi nəticəsində Heydər Əliyev hakimiyyətə gəldi və müqəddəratımız öz əlimizə alındı. Qayıdışın qarşısını nə ideologiya, nə təbliğat, nə də ki hər hansı bir ideya ala bildi, çünki heç bir ideya, təbliğat və s. hətta uğurlu olsalar belə, insanların daxilində olan mənəvi coşqunu və mənaları ifadə etməyə yetərli deyil. Bu proses tanınmış filosof Osvald Şpenqler tərəfindən bu cür izah olunur: "İnsanlarda könüllü aydınlıq və təsvir edilə bilməyən daxili əminlik yaranır". Belə bir halda "baş verən hər şey yeganə doğru yoldur ki, bu da şübhəyə yer qoymur".

1993-cü ildən bəri tarixi taleyimiz millət olaraq mənimsənildi və nəsildən-nəslə ötürülməyə başladı. Hər hansı bir toplum vahid dil və vahid xalq (etnik mənada yox) anlayışı ilə bağlıdırsa, qlobal məsələlərdə, taleyüklü proseslərdə fərdi, mədəni, sosial fərqləri bir kənara ataraq, vahid yanaşma, vahid əxlaq və vahid keyfiyyətlər nümayiş etdirir ki, bu qeyri-fərdiləşmə, mentalitet və ənənələrimizə dayanaraq, mütləq şəkildə istənilən problemin həlli, qarşıya qoyulan məqsədlərə çatmaqla nəticələnir. Burada söhbət hər-hansı bir müvəqqəti tabeçilikdən getmir. Hətta ümumiyyətlə tabeçilikdən getmir. Taleyi müəyyən ümumi universal alqoritm kimi qələmə verən Osvald Şpenqler, onu milli xarakterə təsir edən tabeçilik adlandırmır. O Fridrix Nitsşenin poetik metaforasını xatırladır "amor fati" – "taleyin eşqi".

Bu taleyin eşqi kim olduğumuzu, haradan gəldiyimizi və istiqamətimizi müəyyən edən xüsusi yolumuzu göstərir, bizi köksüz və təsadüfi varlıq deyil, xalqın ruhunda təcəssüm olunmuş böyük vahid niyyətin bir parçası edir.



Bu taleyin eşqi kim olduğumuzu, haradan gəldiyimizi və istiqamətimizi müəyyən edən xüsusi yolumuzu göstərir



ŞƏRİF **KƏRİMLİ**
*Yazıçı-jurnalist*

# MÖHTƏŞƏM DÖNÜŞ

yeni tarix

**Mixail Qorbaçov 1985-ci ilin 23 aprelində "yenidənqurma"nın başlandığını rəsmi şəkildə elan etməklə SSRİ-də bir xaosun təməlini qoydu. Bu proses "kölgə iqtisadiyyati"nın çiçəklənməsinə, zəhmətkeşlərin müflisləşməsinə, qanunların pozulmasına və əyyaşlıq psixologiyasının güclənməsinə səbəb oldu. Aşkarlıq, fikir plüralizmi, demokratiya – bunlar Sovetlər Birliyində cəmiyyətə hava-su kimi lazım idi. Ancaq məsələ onların verilmə dozasında və növbəliliyində idi.**

Heydər Əliyev 1969-cu ilin avqustundan, yəni Azərbaycan KP MK-nın birinci katibi seçildiyi gündən daim diqqət mərkəzində olub. Azərbaycanda və bəlkə də keçmiş ittifaqda H.Əliyev qədər ikinci belə bir şəxsiyyət yox idi. H.Əliyev barədə fikirlər yalnız birqiymətli, biristiqamətli olub - Heydər Əlirza oğlu Əliyev nəhəng şəxsiyyətdir, güclü adamdır, heç kəsə güzəştə getməyən prinsipial rəhbərdir. Lakin 1986-cı ildən başlayaraq Heydər Əliyevə qarşı məqsədyönlü kampaniyalar başlamışdır. Onların təşkilində və həyata keçirilməsində üç başlıca qüvvənin əli olub: **birincisi,** Mixail Qorbaçov başda olmaqla onun klanı; **ikincisi,** erməni diasporu və millətçiləri; **üçüncüsü,** çirkli əməllərinə görə vaxtilə H. Əliyevin cəzalandırdığı yerli adamlar.

M.Qorbaçovun və onun şovinist klanının əsas məqsədi, imperiya mərkəzində özlərindən güclü siyasi xadimi görməmək idi. Bu sahədə Qorbaçova əhatəsinə yığdığı erməni daşnaklarının da güclü təsiri olmuşdur. Erməni siyasətbazları elə düşünürdülər ki, H.Əliyev kimi güclü bir türk mənşəli lider mərkəzi aparatdan uzaqlaşdırılsa, onlar Naxçıvanı və Qarabağın dağlıq hissəsini asanca özlərininki edə bilərlər. 1987-ci ildə ittifaqın tərkibində separatçı çıxışlar güclənməyə başladı. Uzun illər xaricdəki müxtəlif təşkiatlar, o cümlədən daxildəki xüsusi orqanlar tərəfindən mənəvi və maddı qida alan Ermənistanda bu səpkili çıxışlar daha kəskin xarakter aldı. 1988-ci il noyabrın 27-də akademik A.Aqanbekyanın Parisdə, nəhayət ki, maskasını çıxarıb öz həqiqi simasını göstərməsi, Qarabağ və Naxçıvanı "qədim erməni torpaqları" elan etməsi "dağıdıcı lokomotiv"in işə düşməsinə və separatçı-revanşistlərin start götürmələrinə rəvac verdi. M.Qorbaçov tərəfindən tam müdafiə olunan ermənilər bu bəyanatın



> **Mixail Qorbaçovun və onun şovinist klanının əsas məqsədi, imperiya mərkəzində özlərindən güclü siyasi xadimi görməmək idi.**

ardınca əməli işə keçdilər – Quqark, Ağdam, Sumqayıt, azərbaycanlıların Ermənistandan deportasiyası, Bakıya rus-erməni ordusunun yeridilməsi, Qarabağda Xüsusi İdarəetmə Komitəsi və s. hadisələr bir-birinin məntiqi, düşünülmüş davamı idi.

***

Meydanlardan, mötəbər kürsülərdən, məclislərin ağsaqqallığından, televiziya ekranlarından perik salınmış xalqın ziyalı təbəqəsinin xeyli hissəsi, mənfur düşmən tərəfindən ev-eşiyi yağmalanmış, yurd-yuvası dağıdılmış, mənliyi-şəxsiyyəti təhqir olunmuş, ümidləri doğrulmamış insanlar üzünü erməni sərhədlərindən o tərəfə - çətin blokada şəraitində öz mövcudluğunu qoruyub saxlayan qərib və qədim Naxçıvana tutdu... Heydər Əliyevin dağılmaqda olan hakimiyyətə sahib durmasını təkid etdilər. Peyğəmbərimizin belə bir kəlamı var: “Eşq olsun o kəsə ki, o, hakimiyyət uğrunda mübarizə aparır, ancaq bir şərtlə ki, xaiqın mənafeyi naminə ondan düzgün istifadə edə bilir!”

Ölkənin siyasi və iqtisadi infrastrukturunun tamamilə dağılması dərinləşdikcə Qarabağda erməni azğınlığı güclənir, torpaqlarımız işğal olunurdu. Belə bir məqamda var gücü ilə beynəlxalq təşkilatların diqqətini Naxçıvana və onun müdafiəsinə yönəltmiş Heydər Əliyev barədə xalq arasında ümid qığılcımlarını mətbuat səhifələrinə çıxarmağa cəhd edən cəsarətli ziyalılar görünməyə başladı. Onlardan biri də Azərbaycan ETPEİ-nin direktoru, professor, Əməkdar müəllim Zahid Qaralov idi.

“Səs” qəzetinin 13, 20, 27 avqust 1992-ci il tarixli nömrələrində Zahid müəllimin Heydər Əliyevlə bağlı geniş bir müsahibəsi dərc olundu. Bu müsahibə respublikada böyük rezonans yaratdı. Müsahibə çap olunandan dərhal sonra Sirus Təbrizlinin “Heydər bəyi biz çağırmalıyıq!” adlı böyük bir yazısı dərc olundu (“Səs” qəzeti, N 35).

Hər bir xalqın xarakterini onun içərisindən çıxan güclü şəxsiyyətlər təcəssüm etdirir. Azərbaycan türklərinin bədii təfəkkürünün məhək daşını Nizami, təbiət təfəkkürünü Nəsirəddin Tusi kimi nəhənglər qoyublarsa, XX əsrin ikinci yarısında milli siyasət təfəkkürünün əsasını Heydər Əliyev qoymuşdur.

Professor Zahid Qaralov müsahibəsində çox maraqlı təhlillər apararaq belə qənaətə gəlir ki, bir elmi işçi, pedaqoq kimi H.Əliyevin rəhbərliyə gəldiyi 1969-cu ilin avqust plenumundan başlayaraq, bu günə qədər mətbuatda onun öz imzası ilə çap olunmuş və onunla bağlı dərc edilmiş bütün yazıları, televiziya və radiodakı çıxışlarını, o cümlədən xaricdən Əliyevlə bağlı rəyləri oxuyub, dinləyib, təhlil edib və belə bir nəticə çıxarıb ki, Azərbaycana Heydər Əliyev qədər



siyasi, iqtisadi, mənəvi, tarixi sahələrdə dividend gətirən ikinci bir dövlət rəhbəri olmayıb.

***

1992-ci ilin ən keşməkeşli dövrləri idi. Milli Məclisdə elə bir iclas olmazdı ki, deputatlar arasında təhqiramiz ifadələr işlənməsin, əlbəyaxa dartışmalar olmasın. Belə bir vəziyyət insanları cana doyurmuşdu. Artıq nəinki xalq arasında, qaçqın düşərgələrində, hətta Milli Məclisin özündə də Heydər Əliyevin gəlişini arzulayırdılar. ...

Belə bir şəraitdə 91 nəfər ziyalının Heydər Əliyevə müraciəti meydana çıxdı. Azərbaycanın siyasi arenasında ziyalıların görünməsi, mötəbər kürsülərdən onların səslərinin eşidilməsi, alim - kommunist məfhumlarının az qala eyni cür rişxənd və həqarətlə eyniləşdirildiyi, siyasətdən tamam uzaq salınmış zümrənin küncə sıxışdırıldığı bir vaxtda onlar ayağa durmağa, sinələrini qabağa verməyə özlərində taqət tapa bildilər. Onlar ölkədəki ictimai-siyasi, sosial-iqtisadi böhrandan çıxış yolunu xalqın böyük əksəriyyətini özündə birləşdirə biləcək bir qüvvənin – Heydər Əliyevin hakimiyyət uğrunda demokratik mübarizəyə qatılmasında gördülər. Və 1992-ci ilin oktyabrında ona mətbuatda "Azərbaycan Sizin sözünüzü gözləyir" adlı müraciət etdilər.



# Azərbaycan Sizin sözünüzü gözləyir

## *(Heydər Əliyevə müraciət)*

ixtisarla

**Möhtərəm Heydər bəy!**

*Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti günü-gündən ağırlaşır. Azərbaycan sözün əsl mənasında siyasi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali hakimiyyət və idarəetmə orqanları Konstitusiyaya zidd, "real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində iflic vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir. Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mulahizələrə əsasən idarə olunur. Ən dəhşətlisi odur ki, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktında təsbit olunmuş hakimiyyət bölgüsü havadan asılı qalmış, hüquqi dövlətin yaradılması yolunda real addımlar atılmamışdır. İqtidarın idarəetmə səriştəsi, təcrübəsi, bacarığı olmayanda zora əl atması təbiidir...*

*Yaşadığımız dövrün səciyyəvi cəhətlərinin, cəmiyyətin inkişaf meyllərinin iqtidar tərəfindən düzgün qiymətləndirilməməsi, fərsiz kadr siyasəti, idarəetmə səriştəsi olmayan təsadüfi adamların dövlət strukturlarında yüksək vəzifələrə tə yin edilməsi, respublikamızın onsuz da ağır olan durumunu daha da dərinləşdirir.*

*Xalqımıza qarşı törədilən ən böyük dəhşətli cinayətləri - 20 Yanvar, Xocalı, Şuşa, Laçın və digər faciələri törədənlər hələ cəzalarına çatmayıblar. Axırı görünməyən, minlərlə insan ömrü aparan, saysız-hesabsız ailələri doğma yurdlarından didərgin salan Qarabağ fitnəkarlığı bir çoxları üçün siyasi oyunbazlığa, məqam, vəzifə qamarlamaq girəvəsinə, qazanc mənbəyinə dönübdür.*

*Möhtərəm Heydər bəy!*

*İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın, demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhvəsini verə biləcək...*

*Heydər bəy!*

*Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunu bir qrup ziyalılar adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir.*

Bəli, 91 nəfər ziyalının bu müraciəti Heydər Əliyev tərəfindən dərhal cavablandırıldı. Çünki hakimiyyətə gəlmək üçün Azərbaycanda hələ bu vaxtacan analoqu olmayan bir siyasi aksiyaya əl atılmışdı. Ölkəni düşdüyü fəlakətdən, hakimiyyət böhranından qurtarmaq üçün qansız-qadasız bir yolla – milyonlarla insanın dəstəklədiyi siyasi bir təşkilatın irəli sürdüyü namizədin seçki yolu ilə hakimiyyətə gəlişini reallaşdırmaq. Ona görə də H.Əliyev bu müraciətə belə bir cavab verdi:

## Yeni, Müstəqil Azərbaycan uğrunda!

***Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı***

***"Hörmətli ziyalılar!***

*16 oktyabr 1992-ci il tarixli "Səs" qəzetində dərc olunan müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatçılığı haqlıdır və təqdirə layiqdir.*

*Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını hədsiz dərəcədə sevindirir. Eyni zamanda bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın süverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər öz layiqli töhfəsini verməlidir.*

*Bununla bağlı və Sizin müraciətinizə cavab olaraq bəzi fikirlərimi və arzularımı açıqlamaq istəyirəm... Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi təxminən səksəninci illərin əvvəllərindən başlamış, keçmiş Sovetler İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsidir. Bu tarixi obyektiv proseslər Sovet İttifaqının dağılmasına, Kommunist Partiyasının tarixin səhnəsindən çıxmasına və 15 müttəfiq respublikanın hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bundan sonrakı hadisələr - yeni müstəqil dövlətlərin, o cümlədən, Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir haldır və beynəlxalq, dövlətlərarası hüquq normalarının qanunauyğun təzahürüdür.*

*Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin, o cümlədən də Xalq Cəbhəsinin xidməti saymaq olmaz. Təkrar edirəm, bu, tarixi-obyektiv proseslərin nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, eləcə də keçmiş müttəfiq respublikaların xalqlarına əvəzsiz töhfəsidir.*

*Güman edirəm ki, bu yolda əsas vəzifələr aşağıdakılardan ibarətdir.*

*Birinci. Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin tezliklə həll olunması. Artıq beş ildir ki, Azərbaycanla Ermənistan arasında müharibə gedir, ərazimizin bir hissəsini itirmişik, Ermənistanla həmsərhəd bölgələrin bir çox yaşayış məntəqələri dağılmış, minlərlə insan həlak olmuş, yaralanmış, şikəst və əlil olmuşdur. Respublikada yüz minlərlə yurdlarından didərgin düşmüş, ağır vəziyyətdə yaşayan qaçqınlar var. Respublikaya misli görünməmiş maddi və mənəvi ziyan dəyib. Ən dəhşətlisi budur ki, bütün bu faciələrin hələ də sonu görünmür. Bir il bundan əvvəl olduğu kimi, bu gün də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağda və başqa sərhəd zonalarında hərbi əməliyyatlar özbaşına gedir.*

*İkinci. Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi, xalqın güzəranının gündən-günə ağırlaşması böyük həyəcan doğurur. Respublika iqtisadiyyatının cari ilin doqquz ayındakı vəziyyəti barədə statistik məlumatlar insanı dəhşətə gətirir. Milli gəlir 25 faiz, sənaye məhsullarının istehsalı 25 faiz aşağı düşmüşdür. Kənd təsərrüfatında və əsaslı tikintidə vəziyyət daha da ağırdır. Əgər Azərbaycanın iqtisadiyyatının səviyyəsinin son 5-6 il ərzində dayanmadan aşağı düşməsini nəzərə alsaq, o zaman respublikanın necə böyük fəlakətlə üzləşdiyini təsəvvür etmək çətin deyil.*

*Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlara, lazımi intellektual potensiala, əsaslı istehsal fond-*

larına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmlətmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalıdır. Aqrar sahədə təkcə bir il ərzində istehsalı yüksəltməklə kənd təsərrüfatı məhsullarını xeyli artırmaq mümkündür. Təəssüf ki, respublikanın belə zəngin daxili imkanlarından lazımi səviyyədə istifadə olunmur.

Belə qənaətə gəlmək olur ki, dövlət və hökumət orqanlarının respublikanı ağır vəziyyətdən çıxarmağa yönəldilən aydın iqtisadi proqramı, strategiyası, əhalinin həyat səviyyəsini günü-gündən yaxşılaşdırmaq üçün konkret tədbirləri yoxdur. Müşahidələr göstərir ki, bu sahədə bir çox işlər kortəbii aparılır.

Üçüncü. Bu gün respublikada aparılan kadr siyasəti çox haqlı olaraq geniş xalq kütləsinin etiraz və narazılığına səbəb olur. Rəhbər vəzifələrə iş qabiliyyəti, biliyi, bacarığı, təsərrüfat və idarəetmə işlərindəki təcrübəsi nəzərə alınmadan yalnız Xalq Cəbhəsinə mənsubiyyətin əsas götürülməsi hüquq normalarına uyğun deyil, ağır nəticələr verə bilər. Xalq Cəbhəsinə xalq heç zaman belə müstəsna hüquq və səlahiyyət verməmişdir. Ötən illər və onilliklər ərzində respublikada dövlət idarəetmə, iqtisadiyyat, elm, mədəniyyət və sosial sahələrdə kifayət qədər bilikli, təcrübəli, səriştəli, yüksək mədəniyyətə malik kadrlar hazırlanmışdır. Onların hamısı ictimai-siyasi təşkilatlara, partiyalara mənsubiyyətindən asılı olmayaraq, fəal quruculuğa cəlb edilməlidir.

Azərbaycandan kənarda – Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər, nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərdə təhsil almış və böyük təcrübə toplamış azərbaycanlılar yaşayır. Onları öz vətənlərində, müstəqil Azərbaycanın həyatının müxtəlif sahələrində çalışmağa cəlb etmək üçün tədbirlər görmək lazımdır. Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilər...

Dördüncü. Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir.

Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq, bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır.

Əfsuslar olsun ki, bu sahədə də respublikada ötən yarım ildə heç bir dəyişiklik baş verməmişdir.

Fikrimcə, yeni müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Hami onun tərəqqisinə çalışmalıdır. Bu işdə heç kəsə məhdudiyyət qoyulmamalıdır.

Beşinci. Son zamanlar Azərbaycanın parçalanmasına yönəldilmiş meyllərin təzahürü böyük təhlükə yaradır. Belə meyllərin qarşısı qətiyyətlə alınmalıdır. Yaranan problemlər sivil və demokratik yollarla həll edilməlidir...

Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur.

Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zəruriyyətdən doğulur.

Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək, yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.

**Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram.**

**Dərin hörmətlə, Heydər ƏLİYEV.**
**24 oktyabr 1992-ci il,**
**Naxçıvan şəhəri.**

Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarına rəhbərlik edərkən, daha sonra Respublika Partiya Komitəsinin Birinci Katibi olarkən imperiya daxilində xalqımıza olan münasibətin, milli-etnik siyasətin ən zərif, adi baxışda sezilməyən cəhətlərini görən, İmperiya dövlətinin faktiki olaraq ikinci şəxsi kimi fəaliyyət göstərərkən zəngin dövlətçilik təcrübəsi toplamış bir şəxsin – Heydər Əliyevin ziyalılara cavabı, ölkəni krizisdən çıxarmaq barədəki dəyərli tövsiyələri təkcə yeni bir siyasi təşkilatın yaradılmasının təşəbbüskarı olan ziyalıların deyil, bütünlükdə xalqın sarsılmaz inamını özünə qaytardı. Və təhlükəsizlik nöqteyi-nəzərindən 1992-ci il noyabr ayının 21-də Bakıda deyil, Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransı keçirildi. Konfransda Azərbaycanın müxtəlif regionlarından təşəbbüs qruplarının 550-dən artıq nümayəndəsi iştirak edirdi. Konfransı giriş sözü ilə YAP təşkilat komitəsinin sədri Heydər Əliyev açdı. Konfrans Yeni Azərbaycan Partiyasının təsis edilməsi haqqında qərar qəbul etdi. Heydər Əlirza oğlu Əliyev konfrans nümayəndələri tərəfindən açıq səsvermə yolu ilə Yeni Azərbaycan Partiyasının sədri seçildi. Partiyanın bəyanatında qeyd olunurdu ki, başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik hüquqi dövlətin yaradılması, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaqdan, milliyyətindən, dinindən və dilindən asılı olmayaraq, şəxsiyyətin hüquq və azadlıqlarının müdafiəsini təmin etmək məqsədilə geniş demokratik islahatların həyata keçirilməsi uğrunda mübarizə aparmaqdan ibarətdir.

**Heydər Əliyevin tövsiyəsi və məsləhəti ilə Azərbaycanda yaradılan bu partiya gücə, zorakılığa arxalanaraq hakimiyyətə sahib olmaq kimi qeyri-qanuni vasitələrdən imtina etməklə ölkədə sivil qanunlara söykənərək ilk dəfə iqtidara gəlməyin legitim yollarını göstərdi. Bu, qanunlara hörmətin, xalqın tələblərinə diqqətin, demokratiyanın təntənəsinin təzahürü idi.**



# ULU ÖNDƏRİN MİLLİ DİL SİYASƏTİ



NİZAMİ CƏFƏROV
*AMEA-nın həqiqi üzvü*

filologiya

**Azərbaycan dilinin həm ümumxalq dili, həm də xüsusilə dövlət dili kimi inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətləri, sözün böyük mənasında, tarixi xidmətlərdir ki, bu mövzuda artıq onlarla ciddi elmi əsərlər yazılmış, kifayət qədər mükəmməl ümumiləşdirmələr aparılmışdır. Mütəxəssislərin, demək olar ki, hamısı belə bir möhkəm qənaətdədirlər ki, Heydər Əliyevin milli dil quruculuğu siyasəti onun milli dövlət (və millət!) quruculuğu siyasətinin üzvü tərkib hissəsi olub bütöv bir sistem təşkil edir. Və doğrudan da, ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən son illərə qədər Azərbaycanda apardığı dil siyasətində hər hansı bir tərəddüdə, yaxud təsadüfə nə nəzəri, nə də təcrübi olaraq rast gəlinmir ki, bu da yalnız dahilərə məxsus bir keyfiyyətdir.**



Bizim fikrimizcə, Heydər Əliyevin bir dövlət (və millət) rəhbəri kimi Azərbaycanda aparmış olduğu dil siyasəti elmi-nəzəri (və ideoloji) baxımdan yalnız Azərbaycan miqyasında əhəmiyyətli olması ilə məhdudlaşmır, eyni zamanda dünya miqyasına çıxmaqla ümumiyyətlə dil quruculuğunun həmişə aktual olan problemlərinin həlli üçün əsaslı (və mötəbər) prinsiplər təqdim edir. Bu prinsiplər həm də (və daha çox!) ona görə əhəmiyyətlidir ki, Azərbaycanın, yəni müstəqillik uğrunda yüz illər boyu mübarizə aparan və qalib gələn bir xalqın (və dövlətin) nümunəsində və ya təcrübəsində uğurla həyata keçirilmişdir



Azərbaycanda 1960-cı illərinin sonu, 1970-ci illərin əvvəllərinə qədər də kifayət qədər gərgin, enerjili və bir sıra mərhələlərdə məhsuldar milli dil quruculuğu prosesləri getmişdi.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi XX əsrin 60-cı illərinin sonu, 70-ci illərin əvvəllərinə qədər də kifayət qədər gərgin, enerjili və bir sıra mərhələlərdə məhsuldar milli dil quruculuğu prosesləri getmişdi.

Həmin proseslər əsasən aşağıdakılardan ibarət idi:

**1.** İlk orta əsrlərdən etibarən türk dillərinin diferensiasiyası nəticəsində formalaşan Azərbaycan türkcəsi həm orta əsrlərdə, həm də xüsusilə yeni dövrdə özünün bədii, elmi, publisistik və s. təzahürlərində inkişaf edərək XIX əsrin sonu XX əsrin əvvəllərinə kifayət qədər yüksək mədəni səviyyəsi olan bir millətin ünsiyyət vasitəsi kimi gəlib çıxmışdır.

**2.** Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan türkcəsi rəsmi olaraq dövlət dili elan olunmuş, ancaq Cümhuriyyət tez süqut etdiyindən bu sahədə zəruri tədbirlərin həyata keçirilməsi, yəni dil-dövlət-cəmiyyət münasibətlərinin möhkəmləndirilməsinin lazımi səviyyədə təmin edilməsi mümkün olmamışdır.

**3.** Sovet dövründə Azərbaycan türkcəsi (30-cu illərdən etibarən rəsmi olaraq Azərbaycan dili) müxtəlif siyasi-ideoloji problemlərə baxmayaraq sürətlə inkişaf etmiş, ictimai həyatın müxtəlif sahələrində özünün təbii-tarixi hüquqlarına yiyələnmiş, xüsusilə milli ədəbiyyatın əsasında dayanmış, demokratikləşmiş, milliləşmiş, kütləvi normativlik qazanmışdır, ancaq tədricən dövlət idarəçilik sistemindən (və ünsiyyətindən) sıxışdırılmağa, siyasi nüfuzunu itirməyə başlamış, hətta Azərbaycan SSR-in Konstitusiyasından Azərbaycan dilinin Respublikada dövlət dili olması barədəki xüsusi maddə də çıxarılmışdır.

**4.** Sovetlər Birliyində Stalin rejiminin süqut etdiyi (və kəskin tənqidə məruz qaldığı) 50-ci illərin ortalarından sonra Azərbaycan ziyalıları, xüsusilə akademik, xalq yazıçısı və dövlət xadimi Mirzə İbrahimov Azərbaycan dilinin dövlət idarələrindəki pozulmuş hüquqlarını bərpa etmək təşəbbüsü göstərsələr də, həmin təşəbbüs tamamilə uğursuz oldu. Və hətta respublika rəhbərliyi Mirzə İbrahimovun şəxsində millətçilikdə günahlandırıldı, siyasi ideoloji konyukturun güclü təzyiqi altında iş milli (və prinsip etibarilə haqlı!) qüvvələrin "üzrxahlığ"ına qədər gedib çatdı.

**5.** Mühüm məsələlərdən biri də Azərbaycanın (və Azərbaycan xalqının) XIX əsrin əvvəllərindən etibarən ikiyə parçalanması, Şimalın Rusiyanın (SSRİ-nin), Cənubun isə İranın tabeliyində olması, Şimalda rus, Cənubda isə fars dilinin hökm etməsi idi ki, millətin təbii bütövlüyünü zədələyir, milli ruhu təhdid edirdi. Azərbaycan dili keçən əsrin 60-cı illərinin sonu 70-ci illərin əvvəllərinə belə bir keyfiyyətdə, demək olar ki, paradoksal bir vəziyyətdə gəlib çıxmışdı. Əsas paradoks isə ondan ibarət idi ki, dilin inkişaf potensialı kifayət qədər güclü olsa da, siyasi nüfuzu, yəni dövlət dili olaraq mövqeyi məhdudlaşdırılmış, hətta hər hansı dilin inkişafı üçün mühüm hadisələrdən biri olan etnik mədəni kontekstindən, yəni digər qohum türk dilləri ilə kontaktlardan məhrum edilmişdi. Şimalda rus, Cənubda isə fars dilini çıxmaq şərtilə ümumən geniş yayılmış (nüfuzlu və ya beynəlxalq!) dünya dilləri ilə əlaqələrdən isə söhbət belə gedə bilməzdi.Döv-

lət Təhlükəsizlik orqanında gənclik illərindən etibarən çalışan, xüsusi istedadına, intel-lektinə, işgüzarlığına görə sürətlə yüksək mövqelər qazanan Heydər Əliyev Moskvanın dövlət idarəçiliyi, eləcə də “milli ucqarlar”-dakı (N.Nərimanov) idarəçilik siyasətinin nəinki mahiyyətinə, hətta “mətbəx”inə də dərindən bələd olduğundan Respublikada müxtəlif sahələrdə, o cümlədən də milli dil məsələsində problemi necə həll etməyin optimal (və uğurlu!) yollarını da aydın təsəvvür edirdi. Yeni liderin hakimiyyətə gəldiyi ilk illərdəki fəaliyyətini təhlil etməyə çalışsaq görərik ki, o, mövcud problemlərin həllinə a) təmkinlə, b) bütün məqamlarını, konyukturunu, gözlənilən nəticələrini hesablayıb nəzərə almaqla və c) həm ziyalıları, həm də geniş xalq kütlələrini səfərbər etməklə başlayır. Yəni elə hərəkət edir ki, potensial rəqiblər tamamilə, yaxud qismən tərksilah olsunlar. Və hər cür impulsivliyə qarşı olan yeni lider mənsub olduğu xalqın mütəşəkkilliyini təmin etməklə onun ruhunu yüksəldir ki, öz tarixi hüquqlarını müdafiə eləməyə həmişə hazır olsun.

Heydər Əliyevin bir dövlət başçısı olaraq uğurlu dil siyasəti yürütməsinin səbəblərindən biri milli dil quruculuğu təcrübəsinin (ənənənin!) mövcudluğu, ikincisi həmin təcrübəni dərindən öyrənməsi (ənənəni davam etdirməsi) idisə, üçüncüsü, ona sözün geniş (və böyük) mənasında, yaradıcı münasibəti idi.Və yaradıcı münasibət dedikdə biz əsasən aşağıdakıları başa düşürük:

**1)** Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərlik etmiş sələflərindən fərqli olaraq bilirdi ki, Leninin artıq mənasız, heç bir real gücü olmayan “millətlərin öz müqəddəratını təyin etmək hüququ” barədəki xülyalarına (zahirən nə qədər “dəb”də görünsə də!) istinad edib Respublikada dil, ümumən millət məsələsində inqilabi reformalara cəhd göstərmək tamamilə uğursuzluğa məhkumdur. Ona görə də millətin (və onun dilinin) siyasi mövqeyini möhkəmləndirmək üçün Sovetlər Birliyindəki mövcud şəraitə (konyukturlara!) uyğun yollar axtarmaq lazım gəlir.

**2)** Heydər Əliyevə iqtisadi baxımdan geridə qalmış, sosial təminatı xeyli aşağı olan, xalqla rəhbərlik arasındakı münasibətlərin o qədər də səmimi olmadığı, milli yuxarıların çox hallarda intriqa bataqlığına sürükləndiyi və Azərbaycan xalqına yuxarıdan aşağı baxan millətlərin nümayəndələrinin müxtəlif səviyyələrdə idarəçilik mövqelərini işğal etdiyi bir Respublika miras qalmışdı ki, bu da milli məsələyə kifayət qədər fundamental problemlərdən (və əgər belə demək mümkünsə, aşağılardan!) başlamağı tələb edirdi.

**3)** Heydər Əliyev Respublika rəhbərliyindəki sələflərindən daha yaxşı bilirdi ki, milli məsələləri, o cümlədən də dil məsələsini o zaman uğurla həll etmək mümkündür ki, xalqın yatmış enerjisi, kifayət qədər zəngin potensialı hərəkətə gəlsin. Əks halda yuxarıdan təqdim olunmuş ən uğurlu təklif, yaxud irəli sürülmüş ən dəyərli təşəbbüs belə aşağılara geniş xalq kütləsinə çatmadan elə yuxarılardaca provakasiya hədəfinə tuş gəlib uğursuzluqla nəticələnəcəkdir ki, bunun da acı təcrübəsi Respublikada hələ unudulmamışdı.

* * *

Heydər Əliyevin Azərbaycan dilinə (ana dilinə!) münasibətinin etnoqrafik əsaslarını doğulub boya-başa çatdığı Naxçıvanın zəngin dil-ünsiyyət mühiti yaratmışdı. O mühit ki, həm kökləri çox-çox qədim dövrlərə gedib çıxan folklorun, həm də müasir dünyagörüşlü ziyalıların vətənidir.

Sələflərində olmayan bir mühüm xüsusiyyət Heydər Əliyev üçün xarakterik idi ki, bu da milliliklə ümumbəşəriliyin (modern dünyagörüşünün!) bir şəxsiyyətdə mükəmməl şəkildə birləşməsindən ibarət idi. Ona görə də həm tələsmədən, həm də gecikmədən, demək olar ki, bütün maneələri aradan qaldıraraq, bütün mövcud konyukturları neytrallaşdıraraq millətin mütəşəkkilliyinə nail oldu, Azərbaycan dilinin Respublikada dövlət dili olaraq nüfuzunun o dövrkü şərtlər daxilində maksimum yüksəlməsi üçün bütün tədbirlərin görülməsini təmin etdi.

Heydər Əliyevin sovet dövründə Azərbaycana rəhbərlik edərkən yürütdüyü milli dil siyasəti kifayət qədər müstəqilliyi ilə seçilən bir milli kommunistin yürütdüyü siyasətdir ki, onun əsas məzmununu aşağıdakı təşəbbüslər müəyyən etmişdir:

**1)** Xalq gördü ki, Respublikanın yeni rəhbəri kənd zəhmətkeşləri ilə görüşlərdən başlamış ta Azərbaycan Dövlət Universitetinin yarım əsrlik yubiley məclisinə və ya Azərbaycan yazıçıları-nın qurultaylarına qədər xalqın öz dilində – Azərbaycan dilində danışır. Və bunu elə edir ki, sanki belə də olmalı imiş.

**2)** Azərbaycan ədəbiyyatının, ümumən mədəniyyətinin klassiklərinin ümumxalq səviyyə-sində keçirilən yubileyləri həm də ana dilinin geniş miqyasda təbliği demək idi. Xalq özünün Nizami, Nəsimi, Füzuli, Xətai, Vaqif, Zakir, M.F.Axundzadə, Aşıq Ələsgər, Mirzə Cəlil, Sabir, H.Cavid, S.Vurğun kimi dahilərinin dövlət (və dövlət başçısı) miqyasında nə qədər yüksək qiymətləndirildiklərini gördükcə özü də yüksəlirdi. Və hər biri öz dövründə ana dilinə ölməz abidə qoymuş bu mütəfəkkirləri yalnız ziyalılar səviyyəsində yox, həm də geniş xalq kütlələri səviyyəsində yenidən dərk etmək bütün hallarda milli intibaha, tarixi köklərin dərinliklərinə getməyə və bu günün hansı təkamül mərhələlərinin nəticəsi olduğunu anlamağa məcbur edirdi ki, burada dil məsələsi ən mühüm məsələ idi.

**3)** Azərbaycan Respublikasının rəhbəri müasir Azərbaycan yazıçısının (onların mütləq əksəriyyəti ana dilində yazırdı) nüfuzunu o zamana qədər görünməmiş bir səviyyəyə qaldırdı, onu (Azərbaycan yazıçısını) sovet ideologiyasının (rejiminin!) inzibati təzyiqlərindən cəsarətlə qorudu, milli demokratik dünyagörüşünün yayılması üçün geniş meydan açdı… Və Azərbaycan yazıçılarının əsərlərinin həm Respublikada ana dilində, həm də bütün Sovetlər Birliyi miqyasında rus, eləcə də digər dillərdə nəşrinə hərtərəfli şərait yaratdı. Yalnız bir faktı qeyd etmək kifayətdir ki, əgər keçən əsrin 70-ci illərində Azərbaycana Heydər Əliyev kimi böyük bir millət xadimi, geniş dünyagörüşlü lider başçılıq etməsəydi, İsa Hüseynov, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Hüseyn Arif, Nəbi Xəzri, Nəriman Həsənzadə, Fikrət Qoca, Anar, Elçin kimi onlarla böyük sənətkar bu qədər inamla yazıb yarada, bu qədər böyük şöhrət qazana (və ana dilinə bu qədər böyük şöhrət gətirə!) bilməzdilər. Və onu da əlavə edək ki, həmin 70-ci, eləcə də 80-ci illərdə Azərbaycan yazıçılarının çap olunduqları “Azərbaycan”, “Ulduz” jurnalları, “Ədəbiyyat və incəsənət” qəzeti heç bir digər milli respublikada müşahidə edilməyən yüksək tirajlarla çıxaraq Azərbaycan ədəbi dilinin inkişafına, xalq kütlələri arasında yayılmasına böyük töhfələr verirdi.



**4)** Heydər Əliyev hakimiyyətə gəldikdən sonra dil, ədəbiyyat və tarix sahəsindəki xüsusilə 30-cu illərdən etibarən məlum ideoloji çərçivəyə salınmış elmi araşdırmalar həm xronoloji, həm də intellektual metodoloji baxımdan dərinləşməyə başladı. Ən mühüm məsələlərdən biri o oldu ki, antitürkçü əhval-ruhiyyə aradan qalxdı; bu isə milli humanitar təfəkkürün inkişafı, milli özünüdərkin meydanının genişlənməsi üçün elmi mühitdə uzun illər gözlənilən şəraiti yaratmış oldu.

1974-cü ildə ali məktəblər üçün “Müasir Azərbaycan dili” dərsliyinə Azərbaycan SSR-in Dövlət mükafatının verilməsi isə o demək idi ki, dövlət həm Azərbaycan dilini, həm Azərbaycan dilçiliyini, həm də azərbaycandilli təhsili yüksək səviyyədə himayə edir.

**5)** Və nəhayət, çox mühüm təşəbbüslərdən biri o oldu ki, Azərbaycan SSR Ali Sovetinin növbədənkənar VII sessiyasında (1978) Respublikanın yeni Konstitusiyası qəbul olundu ki, onun 73-cü maddəsində Azərbaycan dilinin Respublikada dövlət dili olması təsbit edildi.

Ümummilli lider bu tarixi hadisə ilə bağlı sonralar xatırlayırdı ki, “o vaxt mən Sovetlər ittifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət di-

linin Azərbaycan dili olduğunu öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq".

Heydər Əliyev yalnız böyük millət xadimi deyildi, həm də dahi siyasətçi idi. Və özündən əvvəlki populist, düşünülməmiş təşəbbüslərin nə ilə nəticələndiyini, problemi həll etmək əvəzinə yeni problemlər yaratdığını görmüşdü. Məsələni üzdən yox, kökündən (əsaslı şəkildə) həll etməyin nəticəsi idi ki, tarixi təşəbbüsün müəllifi hər işdə olduğu kimi bu mühüm milli işdə də özünə (və xalqına) qələbə qazandırdı.Moskvada Heydər Əliyevin Azərbaycan xalqı üçün kim olduğunu, onun müasir tarixində hansı yeri tutduğunu yaxşı bildiklərinə görə ciddi cəhdlə çalışırdılar ki, artıq öz azadlığını, müstəqilliyini tələb etməkdə olan xalqı başsız qoysunlar. Və odur ki, ümummilli lideri mənsub olduğu xalqdan tamamilə təcrid etmək üçün hər cür provakasiyalara əl atırdılar. Hətta iş o yerə çatdı ki, Azərbaycana Moskva (M.S.Qorbaçov) Azərbaycan Respublikasının Konstitusiya ilə təsbit olunmuş dövlət dilini əməlli başlı bilməyən, öz qüsurlu (və hər kəlməsi gülüş doğuran) nitqi ilə xalqın ana dilini təhqir edən bir "rəhbər" göndərməkdən belə çəkinmədi. Konkret olaraq milli dil məsələsinə gəldikdə isə tam aydınlığı ilə görürük ki, Heydər Əliyev sovet dövründə ana dilinin nufuzunu nə qədər mümkün idisə yüksəltdi; o məsələləri ki həll etmək mümkün deyildi (məsələn, Azərbaycanın Şimalı ilə Cənubu arasında milli dil kontaktlarını təmin etmək), onların gələcəkdə həlli üçün elə zəruri (və perspektivli) tədbirlər gördü ki, az-çox münbit ictimai-siyasi şərait yaranan kimi "Heydər Əliyev formulu" uğurla özünü təsdiq etməyə başladı.

***

Xalqın tələbi ilə Azərbaycana gələn, müxtəlif xarakterli hərcmərcliklərin, iğtişaşların, dağın-tıların qarşısını alaraq ölkəni müstəqil inkişaf yoluna çıxaran ümummilli liderin **1993-cü ildən 2003-cü ilə** qədər milli dil quruculuğu sahəsində gördüyü işlər həm miqyası, həm də məzmunu etibarilə müqayisəsizdir.

Naxçıvan MR Ali Məclisinə rəhbərlik etdiyi illərdə Heydər Əliyev dövlət dilinin "türk dili" adlandırılmasını təklif edənlərə məsələnin tarixi mahiyyətini dərindən izah elədikdən sonra belə bir təmkinli (və müdrik) məsləhət verir:

"...Mən də hesab edirəm ki, biz türkük... Ancaq indi gətirib biz tələm-tələsik bu Konstitusiyaya (Naxçıvan MR-nın Konstitusiyası nəzərdə tutulur – N.C.) dəyişiklikdə yazaq ki, Naxçıvan Muxtar Respublikasının dövlət dili türk dilidir, bu, mənə elə gəlir ki, tələsiklik olar. Gəlin bunu bir də etiraf edək ki, milli dirçəliş, milli ənənələrin bərpa olunması, milli inkişaf sahəsində bu günlərdə çox mühüm qərarlar qəbul etmişik. Gəlin bir az səbr edək ki, bizim bu qərarlar həzm olunsun"... (Naxçıvan MR Ali Məclisinin 24 noyabr 1990-cı il tarixli iclası).

Bu mülahizə mövqedə ən azı üç mühüm elmi ideoloji prinsip ehtiva olunur:

**1)** məsələnin tarixi mahiyyəti dilin (və xalqın) adının hansı təkamül mərhələlərdən keçdiyi (və onun məntiqi) aydın təsəvvür olunmalıdır;

**2)** yalnız Naxçıvan yox, ümumazərbaycan miqyasında müzakirələrə ehtiyac vardır;

**3)** nə qədər zəruri olsa da, ümummilli qərarlar tədricən qəbul edilməlidir ki, cəmiyyət onları həzm edə bilsin.

Azərbaycan Parlamenti isə 1992-ci ilin 22 dekabrında bir qrup deputatın iştirakı ilə dövlət dilinin adı ilə bağlı məsələni, ümummilli liderin ifadəsi ilə desək, məhz "tələm-tələsik" müzakirə edib "türk dili"nə üstünlük verdi.

Və bu qərar işləməyə başlasa da, tezliklə böyük mübahisələrə, praktikada isə problemlərə meydan açdı. Hər şeydən əvvəl ona görə ki, müstəqil dillər olan Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsini fərqləndirməkdə çətinliklər yarandı.

"Tələm-tələsik" qəbul edilmiş qərarın yaratdığı problemləri həll etmək milli dil siyasəti ilə bağlı ən aktual problemlərdən birinə (demək olar ki, birincisinə!) çevrildi.Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilənə qədər bu məsələ açıq qaldı. Azərbaycan Prezidentinin dövlət dilinin taleyi ilə bağlı ilk möhtəşəm tədbirlərindən biri Azərbaycan Respublikası Konstitusiyası layihəsinin 1995-ci ildə elm, mədəniyyət xadimlərinin iştirakı ilə keçirilən geniş müzakirəsi oldu. İki gün davam edən həmin müzakirə yalnız qəbul

etdiyi obyektiv qərarla yekunlaşmadı, həm də (və fikrimizcə, daha çox) onunla əlamətdar (və tarixi!) oldu ki, dövlətin (və xüsusilə dövlət başçısının!) dil məsələsinə həssaslığını, ona nə qədər böyük siyasi ideoloji önəm verdiyini bir daha bütün miqyası ilə göstərdi.

Əlbəttə, əsas məsələ dövlət dilinin adı ilə bağlı idi, ancaq bundan heç də az əsas olmayan bir məsələ də o idi ki, Azərbaycan dövləti (və Prezidenti) dil quruculuğunu dövlət (və millət!) quruculuğu prosesindən ayrı təsəvvür eləmir, xalqın dilinə, doğrudan da, "onun ruhu" (V.Hum-boldt) kimi baxır. Və milli dilə hər hansı volyuntarist müdaxiləni milli dövlətə qarşı yönəlmiş təx-ribat sayıb cəsarətlə rədd edir.

Azərbaycan Prezidentinin – ümummilli liderin açılış nitqi ilə 1995-ci ilin 31 oktyabrında Azərbaycan MEA-da başlayan müzakirə ertəsi gün Prezident Aparatında Heydər Əliyevin bilavasitə sədrliyilə davam etdirildi.

Müzakirə üç variant əsasında aparılırdı: "Azərbaycan dili", "türk dili" və "Azərbaycan türk dili" ("Azərbaycan türkcəsi"). Maraqlıdır ki, nə qədər paradoksal olsa da, müzakirələrdə ən az müdafiə edilən variant məhz "türk dili" oldu. Fikrimizcə, bunun əsas səbəbi o idi ki, geniş müzakirələr keçirilmədən qəbul olunmuş qərar cəmiyyət tərəfindən dəstəklənməmişdi, yaratdığı problemlər isə göz qabağında idi; hər şeydən əvvəl, qərar qəbul edilərkən ümumxalq səsverməsi, referendum keçirilib xalqla məsləhətləşilmədiyi üçün Azərbaycan cəmiyyəti olduqca həssas bir dövrdə, haqlı olaraq, "yuxarı"dan gələn həmin qərardan, ümumən qərar vermə prosedurundan narazı qalmışdı.

Akademik səviyyədə (və kifayət qədər demokratik şəraitdə) aparılan müzakirələrin sonunda ümummilli lider belə bir təklif verdi ki, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının layihəsindəki dövlət dili ilə bağlı 21-ci maddə referenduma ayrıca çıxarılsın. Və belə də oldu.

12 noyabr 1995-ci ildə referendumla qəbul olunan, 27 noyabr 1995-ci ildən isə qüvvəyə minən Azərbaycan Respublikası Konstitusiyasında həmin maddə aşağıdakı şəkildə təsbit edilmişdir:

I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

II. Azərbaycan Respublikası əhalisinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir". Müzakirələr göstərdi ki, yalnız milli ictimai təfəkkür deyil, bilavasitə mütəxəssislər də ana dilinin (eyni zamanda dövlət dilinin) qeydsiz-şərtsiz "türk dili" adlandırılmasının əleyhinədirlər, ona görə ki:

a) iki müstəqil türk mənşəli dilin hər ikisinin eyni bir adla adlandırılması özünü doğrultmur və təcrübədə onları istər-istəməz ayrı-ayrı adlarla (Azərbaycan türkcəsi – Türkiyə türkcəsi) adlandırmaq lazım gəlir;

b) Azərbaycan ərazisində yaşayan qeyri-türk mənşəli müxtəlif xalqlar, etnoslar (talışlar, tatlar, kürdlər, ləzgilər və b.) "Azərbaycan dili"nin "türk dili" adlandırılmasından hər halda narahat olurlar, bir sıra qüvvələr isə bundan istifadə edərək "xırda millətçilik" hisslərini qızışdırırlar;

c) "Azərbaycan dili" adı artıq neçə on illərdir ki, uğurla istifadə olunur, kifayət qədər böyük işlənmə təcrübəsinə malikdir və milli ictimai təfəkkürdə tamamilə qərarlaşmışdır. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası, eləcə də onun dövlət dili ilə bağlı xüsusi maddəsi qəbul olunduqdan sonra uğurla işləməyə başladı ki, bu da ümummilli liderin milli dövlət quruculuğu (və idarəçiliyi) istedadının təntənəsi demək idi.

***

Məlum olduğu kimi, bütün xalqların milli yaradıcılıq (özünütəsdiq!) təcrübəsində dil məsələsi ədəbiyyat məsələsi ilə bilavasitə bağlıdır.

Bütün xalqların milli yaradıcılıq (özünütəsdiq!) təcrübəsində dil məsələsi ədəbiyyat məsələsi ilə bilavasitə bağlıdır

Heydər Əliyev, artıq qeyd etdiyimiz kimi, hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi ilk illərdən Azərbaycan yazıçılarının qurultaylarında iştirak etmiş, həmin qurultaylardakı çıxış-larında qələm adamlarına dəyərli tövsiyələr vermişdir ki, onların böyük bir hissəsi dil məsələlərini ehtiva edir. Müstəqillik dövründə – 1997-ci ilin oktyabrında ke-

çirilən X qurultayda da ulu öndər cəmiyyətin bu məsələyə – dil məsələsinə həssas münasibətini nəzərə alaraq çıxışında ona xüsusi yer ayırmış, özünəməxsus məzmunlu (və tarixi!) mülahizələrini söyləmişdir ki, bu gün dil quruculuğunun, dövlətin dil siyasətinin və ümumiyyətlə, xalqın (və dövlətin) dilinə yaradıcı münasibətin "yol xəritəsi". Və heç şübhəsiz, sabah da belə olacaqdır…Qurultaydakı məşhur nitqində Heydər Əliyev xatırlayırdı ki, "yadımdadır, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azərbaycan dilində nitq söyləyəndən sonra (bu hadisə 1971-ci ildə olmuşdu – N.C.) tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi. Ona görə ki, mən orada, birinci növbədə, Azərbaycan dilində danışdım. Dedim ki, əziz qardaşlar, axı burada elə bir şücaət yoxdur. Bu, bizim öz dilimizdir… Mən bunu anladım. Çünki dövlət adamları Azərbaycan dilində danışmamışdılar. Bu dil məişət dili olmuşdu və bir də ədəbiyyat dili olmuşdu. Amma dövlət dili olmamışdı".Və ümummilli lider əlavə etmişdi: "Mənim nitqimi yazıçılar böyük bir hadisə kimi qəbul etdilər. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Bu sahədə çox çalışdıq. Baxmayaraq ki, elə bir dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilimizi inkişaf etdirdik və siz, sizin əsərləriniz, ədəbiyyat olmasaydı, şübhəsiz ki, dilimiz bu cür inkişaf edə bilməzdi".

Azərbaycan dilinin inkişafında Azərbaycan yazıçısının xidmətlərini yüksək qiymətləndirən Ulu Öndər qurultayda bu məsələ üzərində xüsusi dayanaraq fəxrlə demişdi:"Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var… Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq millət ola bilməz".

Heydər Əliyevin nitqində maraqlı məqamlardan biri də o oldu ki, görkəmli dilçi Tofiq Hacıyevin çıxışındakı bir neçə aktual məsələyə diqqəti cəlb edib dəyərli şərhlər verdi.

Onlardan birincisi o oldu ki, professor Tofiq Hacıyev dedi:

"Cənab Prezident keçən il Türk yazarlarının üçüncü qurultayında təxminən saat yarıma qədər geniş, məzmunlu bir çıxış etdi. Türkiyədən gələn yoldaşlarım mənim yanımda oturmuşdular… Dil Qurumunun sədri Əhməd bəy tənəffüsdə dedi ki, sizin Prezident bu geniş çıxışında cəmisi beş Avropa sözü işlətdi. İstanbul Universitetinin professoru Səfi bəy "fakt" sözünü də əlavə etdi. Aydın oldu ki, Prezident bu çıxışında cəmi altı Avropa sözü işlədibdir. Dedi ki, amma bizim Prezidentimiz bu boyda çıxış etsəydi, orada 200-dən çox Avropa sözü olmalı idi".

Və əlavə etdi: "Bu yaxınlarda, sentyabrın 26-da Dil Qurumu ilə Bilkənd Universitetinin keçirdiyi Dil bayramı yığıncağında oldum. Türk dünyasının böyük elm, təhsil işçisi İhsan Doğramacı orada dedi ki, Azərbaycan türkcəsi türk dillərinin içərisində ən gözəlidir…

Bu qocaman həkim, böyük elm adamı dedi ki, hazırda türk dünyası üçün ortaq türk dili problemi vardır. Azərbaycan türkcəsi bütün türk dünyası üçün, türk xalqları üçün ortaq dil olmağa layiqdir.Bəlkə özümüz bu işin içindəyik deyə görmürük, amma görürsünüz, kənardan necə qiymətləndirirlər". Ulu Öndər həmin məsələyə münasibətini belə ifadə etdi:

"Burada professor Hacıyev çıxış edərək Türk Yazarlarının qurultayından bir xatirəni yada saldı. Bilirsiniz, bu hadisə məni sevindirdi. Çünki biz dil haqqında müzakirə apararkən professor Hacıyev belə mövqedə idi ki, dilimizin adı başqa cür olmalıdır. Biz isə qəbul etdik ki, Azərbaycan dili olmalıdır. Amma onun sözləri məni ona görə sevindirdi ki, bizim Türkiyədən gələn alimimiz, dostumuz dilimizin qiymətini verə bilibdir. İş onda deyil ki, bunu mən danışıram, sən danışırsan, o birisi danışır. İş ondadır ki, dilimizin qiymətini verə bilibdir. Həqiqətən, bizimlə dost, qardaş ölkədə – Türkiyədə də dilimizi Azərbaycan dilini çox sevirlər". Və əlavə elədi ki: "Bilirsiniz, mən bunu dəfələrlə demişəm və bu gün fürsətdən istifadə edib yenə də deyirəm:

biz türkdilli xalqların ailəsinə mənsub olan bir xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Biz bunu təsdiq etmişik və bu, artıq bütün ictimaiyyət tərəfindən qəbul olunubdur. Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur". Professor Tofiq Hacıyevin "Bir əcnəbi təyyarə meydanından maşınla Dənizkənarı bulvara qədər gələr, bilməz ki, dünyanın hansı şəhərindədir – Vaşinqtondadır, Ankaradadır, ya Bakıda. Bütün reklamlar, yazılar əcnəbi, yabançı dildədir" sözlərinin müqabilində Azərbaycan Prezidenti dedi:"O ki, qaldı reklamlara və şəhərdə başqa dillərdə olan yazılara və yaxud da ki, respublikamızda hansısa kolleclərdə ingilis dilində dərs keçilir, bunların hamısına baxmaq lazımdır. Ancaq bu məsələdən bir o qədər də narahat olmaq lazım deyil...

...Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir. Bununla yanaşı biz çalışmalıyıq ki, məktəblərimizdə, universitetlərimizdə gənclərimiz bir neçə dil öyrənsinlər. Mütləq öyrənməlidirlər". Və Prezident Azərbaycan, ümumiyyətlə postsovet respublikaları üçün xarakterik olan ciddi bir problemə də toxundu:

"...Azərbaycanda indi də insanlar var ki, əsasən rus dilində danışırlar. Azərbaycan dilində danışmırlar. Bizim dövlət orqanlarında da beləlləri var. Mən dəfələrlə xəbərdarlıq etmişəm ki, Azərbaycan dilini öyrənin, öyrənməsəniz işdən çıxaracağam". Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir. Prezident həmişə olduğu kimi bu dəfə də yazıçılarla açıq danışmaqdan, mövcud problemləri necə varsa, o cür deməkdən çəkinmədi:

"Professor Hacıyev mənə deyir ki, siz Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin işçilərini məcbur edin, onlar Azərbaycan dilini öyrənsinlər. Mən öz azərbaycanlılarımızı məcbur edə bilmirəm ki, Azərbaycan dilini öyrənsinlər. Amma sizə deyim ki, onlar artıq öyrənirlər. Xarici ölkələrin respublikamızda olan səfirləri artıq Azərbaycan dilini öyrənirlər. Onlar mənimlə görüşəndə çalışırlar Azərbaycan dilində danışsınlar. Mən də bunlara çox sevinirəm. Hətta Rusiyanın səfiri hörmətli cənab Bloxin – burada oturubdur – o, Azərbaycan dilini öyrənir, özü də çox yaxşı öyrənir.

Budur bizim müstəqilliyimizin nəticəsi. Vaxtilə buraya mərkəzdən Azərbaycan Kommunist Partiyasının ikinci katibi vəzifəsinə rus millətindən olan adamlar gəlirdi. Mən onlara Azərbaycan dilini öyrədə bilmirdim. Onlara neçə dəfə deyirdim ki, Azərbaycan dilini öyrənin, ancaq öyrənmək istəmirdilər. Amma bu gün Rusiyanın səfiri öyrənir, Amerikanın səfiri öyrənir, İngiltərənin səfiri öyrənir, Fransanın səfiri öyrənir. Bunların hamısı böyük hadisədir, nailiyyətdir".Azərbaycan yazıçılarının X qurultayında Azərbaycanda latın əlifbasına keçidin tarixi zərurət olduğunu əsaslandıran, hələ XIX əsrdən görkəmli Azərbaycan ziyalılarının ərəb əlifbasından latına keçmək uğrunda ardıcıl mübarizə apardıqlarını xatırladan ümummilli lider dillə bağlı mülahizələrini aşağıdakı sözlərlə yekunlaşdırdı:

"Beləliklə, görürsünüz, dil məsələsi ilə əlaqədar nə qədər məsələlər meydana çıxır. Ancaq yenə də ən əsas nəticə ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun!"

***

2001-ci ilin iyun ayının 18-də Azərbaycan Prezidenti "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında bir fərman verdi ki, həmin fərman, tam məsuliyyətlə demək olar ki, Azərbaycan dilinin tarixində görünməmiş hadisə idi. Dövlətin dil siyasətini bütün miqyası ilə olduqca dolğun şəkildə əks etdirən fərman həm də elmi-metodoloji məzmunu ilə diqqəti cəlb edir. Sənəddə Azərbaycan dilinin mənşəyi məsələsinə ayrıca (və geniş) yer ayrılmışdır və burada qeyd olunur ki, "Azərbaycan dili dialekt və şivələrinin geniş Avrasiya məkanına yayılan türk xalqlarının az qala bütün dil xüsusiyyətlərini əks etdirəcək

## Hazırda türk dünyası üçün ortaq türk dili problemi vardır. Azərbaycan türkcəsi bütün türk dünyası üçün, türk xalqları üçün ortaq dil olmağa layiqdir



qədər rəngarəng olmasının da başlıca səbəbi ta qədimlərdən bu torpaqlarda etnik baxımdan eyni köklü türk etnoslarının mövcud olmasıdır". Bu, uzun illər (və məhz siyasi məqsədlərlə) türk etnoslarının Azərbaycana nəinki ilk orta əsrlərdə, hətta monqol tatar yürüşləri dövründə gəldiklərini yeganə akademik mövqeyə çevirməyə çalışanlara tutarlı cavab olmaqla yanaşı, həm də (və daha əsası!) milli tarixi təfəkkürün, ana qaynaqlarını türkçülükdən alan azərbaycançılıq ideologiyasının təntənəsi idi.

Azərbaycan dili tarixinin bir sıra mübahisəli və ya uzun illər hansısa ideoloji məqsədlə mübahisə obyektinə çevrilmiş problemlərinə aydınlıq gətirilən fərmanda dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi üçün bir sıra konkret tədbirlərin görülməsi də irəli sürülür:

"...Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tariximizin tələblərinə cavab verən tədrisi işinin təkmilləşdirilməsinə ehtiyac vardır. Bir çox kütləvi informasiya vasitələrində, rəsmi yazışmalarda, kargüzarlıq və s. sahələrdə Azərbaycan ədəbi dilinin normalarına lazımınca əməl olunmur. Azərbaycan dilinin reklam işində istifadə edilməsində ciddi qüsurlar müşahidə olunur".

**Fərman aşağıdakı çox mühüm müddəa-qərarlarla bitir:**

Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət Dil Komissiyası yaradılsın.

"Azərbaycan Respublikasının dövlət dili haqqında" qanun hazırlansın.

Azərbaycan Respublikasının nazirlik, idarə, təşkilat və müəssisə rəhbərləri öz tabeliklərində olan qurumlarda dövlət dilinin və latın qrafikasının tətbiqi işinin yaxşılaşdırılması ilə bağlı uzunmüddətli kompleks planlar ha-

zırlayıb həyata keçirsinlər.Təhsil nazirliyi orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi, bu dildə təhsilin keyfiyyəti ilə bağlı əsaslı dönüş yaratmaq istiqamətində qəti tədbirlər həyata keçirsin.Azərbaycan MEA və Təhsil nazirliyi Azərbaycan Yazıçılar Birliyi ilə birlikdə latın qrafikasında çap olunacaq zəruri elmi, bədii, tədris və s. ədəbiyyatının siyahısını hazırlayıb Azərbaycan Respublikası Prezidentinə təqdim etsinlər.Azərbaycan MEA Azərbaycan dilçiliyinə dair aparılmalı araşdırmaların proqramını hazırlasın və araşdırma işinin gedişi barədə hər altı aydan bir Azərbaycan Prezidentinə məlumat versin.

Şəhər və rayon icra hakimiyyəti başçılarına tapşırılsın ki, yerlərdə istifadə olunan lövhə, reklam, şüar, plakat və s.in dilinin Azərbaycan ədəbi dilinə uyğun olması baxımından tədbirlər görsünlər.

Azərbaycanda nümayiş etdirmək üçün alınacaq əcnəbi kino və televiziya məmulatlarının Azərbaycan dilinə dublyaj işi lazımi səviyyədə qurulsun.

2001-ci il avqustun 1-dən respublikada bütövlükdə latın qrafikasına keçirilsin".

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman göstərdi ki:

1) Azərbaycan dilinin (və xalqının) mənşəyi barəsində bir neçə on ildir ki, davam edən mübahisələri yekunlaşdırmaq, tarixi faktların (və sağlam tarixi düşüncənin) mövqeyindən əsaslı bir konsepsiya vermək artıq yalnız elmi deyil, həm də milli, ictimai-siyasi bir ehtiyacdır;

2) Azərbaycan dilinin dövlət dili kimi yaşamaq, daha da inkişaf etmək üçün etnososial, mədəni-mənəvi potensialının olmasını göstərmək məqsədilə tarixdən, daha dərin köklərdən gəlmək lazımdır;

3) Haqqında söhbət gedən fərman bir dövlət sənədi olaraq bütövlükdə Azərbaycan dövlətinin (və xalqının) marağını əks etdirsə də, həmin dövləti yaradan, həmin xalqı işıqlı gələcəyə aparan bir mütəfəkkirin düşüncəsinin məhsulu olduğuna görə, sıravi yox, tarixi səciyyə daşıdığına görə xüsusi elmi konsepsiya ifadə edir.

Əlbəttə, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsəri idi – burada H.Əliyevin qurduğu dövlətin milli dil siyasəti əks etdirilir, həmin dövlət (və dil) uğrunda aparılmış mübarizənin tarixi və gələcəyi ifadə olunurdu. Ona görə də fərmanda irəli sürülmüş ideyalar aşağıdakı kimi ümumiləşdirilə bilər:

1) Azərbaycan dilinin bir dövlət dili olaraq qorunması;

2) Azərbaycan dilinin bir dövlət dili olaraq inkişaf etdirilməsi.

Məhz Heydər Əliyevin formalaşdırdığı dövlət dil siyasətinin uğurla həyata keçirilməsi nəticəsində:

1) Azərbaycan dilinin dövlət dili olaraq siyasi nüfuzu təmin olundu;

2) Təhsilin, elmin, ədəbiyyatın və s. inkişafı ana dilinin – dövlət dilinin tərəqqisi üçün münbit şərait yaratdı;

3) Azərbaycan dili Azərbaycan dövlətinin beynəlxalq mövqeyinin yüksəlməsi ilə tarixdə ilk dəfə geniş beynəlxalq arenaya çıxdı.

Ümummilli liderin milli dil siyasətinin ideya məzmunu qədər mənbələri də zəngindir. Heydər Əliyevi əlinə təbaşir alıb millətinə yeni əlifbanı (dili!) öyrədən böyük Atatürklə müqayisə edənlər tamamilə haqlıdırlar. Mümkün olan hər bir şəraitdə Azərbaycan dilindən bəhs etmək, onun qüdrətindən danışmaq, onu sevdirmək Heydər Əliyevin daxilindən, təbiətindən, milli lider olaraq şəxsiyyətindən irəli gəlirdi.

***

Ulu öndərin milli dil siyasətindən danışarkən mühüm bir məsələni də qürurla qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyanın o möhtəşəm dövlət adamlarındandı ki, güclü natiqliq istedadına malik idi. Və o, Azərbaycan dilini yalnız ürəkdən sevməsi, onun dövlət dili hüquqlarını müdafiə edib milli (və beynəlxalq) nüfuzunu yüksəltməsi ilə deyil, həm də bu dildə gözəl danışması, hər kəsə nümunə göstərməsilə ona (Azərbaycan dilinə) tarixi şöhrət qazandırdı, elə bir abidə ucaltdı ki, bundan sonrakı nəsillər ana dilini, dövlət dilini bir də ona görə sevəcəklər ki, o, Heydər Əliyevin dilidir.

# Heydər Əliyev və Azərbaycan mətbuatı



AKİF **TƏVƏKKÜLOĞLU**

*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyəti Sədrinin müşaviri, əməkdar jurnalist.*

MEDİA

Azərbaycan mətbuatı yarandığı gündən zəngin və şərəfli inkişaf yolu keçmiş, bütün dövrlərdə mütərəqqi ictimai ideyaların carçısı kimi çıxış etmişdir. Zəngin tarixi ənənələri olan xalqımızın azadlıq istəyinin, müstəqillik amalının güclənməsində, mənəvi dəyərlərinin inkişafında, milli şüurun, mənəviyyatın, mədəniyyətin formalaşmasında mətbuatımız həmişə önəmli rol oynamışdır.

Həsən bəy Zərdabi vaxtilə Azərbaycanda azad, demokratik mətbuatın əsasını qoyubdur. Zərdabi dönə-dönə vurğulayırdı ki, millətin ayılması üçün mütləq maariflənməsi gərəkdir. Bu amalla Həsən bəy Zərdabi çox çalışdı, fəaliyyət göstərdi və öz missiyasını sona qədər yerinə yetirdi. O zamanlar xalqın maarifləndirilməsi prosesində öndə ziyalılar gedirdi. XX əsrin əvvəllərində Azərbaycanda çox böyük jurnalistlər dəstəsi yarandı. Müxtəlif sahələrdə xidmət edən bu insanlar mətbuata, jurnalistikaya çox böyük qayğı göstərirdilər, Həsən bəy Zərdabi kimi ziyalılar Azərbaycanda sərbəst, azad, müstəqil mətbuatın inkişaf etməsində böyük işlər görürdülər.

Müstəqil mətbuatımızın inkişafında rolu olmuş insanlardan Cəlil Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun və digər belə şəxsiyyətlərin adını qeyd etməliyik. Cəlil Məmmədquluzadə misilsiz jurnalist və publisist kimi, “Molla Nəsrəddin” jurnalı vasitəsilə və ondan daha geniş dairədə Azərbaycan xalqına əvəzsiz xidmətlər göstərmişdir.

Mədəniyyət tariximizə böyük bəstəkar kimi daxil olmuş Üzeyir Hacıbəyov musiqiçi və bəstəkar kimi ən yüksək zirvələri fəth etməklə yanaqlı, eyni zamanda publisistika, jurnalistika sahəsində çox ciddi uğurlar əldə edib. Öz əsərləri vasitəsilə cəmiyyətin eybəcərliklərini cəsarətlə göstərən Üzeyir Hacıbəyov istəyirdi ki, cəmiyyət daha sağlam olsun.

Bu dönəmdə Azərbaycan mətbuatı sözün əsl mənasında demokratik meyarlarla inkişaf edirdi. Təəssüf ki, Sovet hakimiyyəti illərində ölkədə bütün sahələrdə olduğu kimi milli mətbuatın inkişafına da ciddi maneələr yaradıldı.1936-40-cı illərdə dövrün ən aparıcı şəxsiyyətləri, mütərəqqi fikir sahibləri ciddi təzyiqlərə məruz qaldılar. Sonrakı dövrlərdə sovet təbliğatı tam şəkildə öz istəklərini tətbiq etməyə başladı. Totalitar rejimin senzura maşını milli mətbuat ənənəsinin inkişafına ciddi zərbələr vurdu. 1969-cu il iyulun 14-də ümummilli lider Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi mətbuatın inkişafında əsaslı dönüş yaratdı. Ulu Öndərin şəxsi səyi nəticəsində dilimizə olan

ögey münasibət aradan qaldırıldı. Heydər Əliyev hər zaman ana dilinə böyük qiymət verdiyini nümayiş etdirirdi. Azərbaycan Sovet Sosialist Respublikasının 1978-ci ildə qəbul olunan Konstitusiyasında dövlət dilinin Azərbaycan dili kimi təsbit olunması, demək olar ki, bütün qaranlıqlara işıq saçdı.




Məhz həmin dövrdə istər ədəbiyyat, istərsə də mətbuat sahəsində yüksək irəliləyiş nəzərə çarpırdı. Azərbaycan dilində qəzetlərin sayı artırıldı, televiziyada verilişlərin Azərbaycan dilində yayımı genişləndirildi. Ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ixtisaslı kadrların hazırlanması istiqamətində əhəmiyyətli addımlar atdı. Azərbaycanda nəşr olunan çap mətbuatı peşəkarlıq səviyyəsinə və digər parametrlərinə görə İttifaq miqyasında seçilirdi. Artıq Azərbaycan mətbuatı uzun onilliklər qadağan olunan milli adət-ənənələrimizdən, milli tariximizdən, mədəniyyətimizdən, dilimizdən yazmağa başladı, bu məsələlər geniş təhlil olunaraq təbliğ edildi. Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə yüzlərlə gənc SSRİ-nin ali məktəblərinə müsabiqədənkənar qəbul olunurdu. Onların arsında jurnalistika ixtisası üzrə təhsil alanlar da az deyildi. Bu da Azərbaycan milli jurnalistika məktəbinin daxa yaxşı formalaşmasında, müasir jurnalistikanın inkişafında mühüm və müstəsna rolunu oynadı.

Ulu Öndərin Azərbaycan mətbuatının inkişafında rolu özünü xüsusilə müstəqillik illərində daha bariz göstərib. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olanların senzurasında boğulan Azərbaycan mətbuatı yalnız ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra azad oldu, inkişaf etdi, mətbuat və söz azadlığının təmin edilməsi mümkün oldu, milli mətbuatımız siyasi həmlələrdən, təzyiqlərdən, buxovlardan qurtuldu. Ulu öndər Heydər Əliyevin başlatdığı dövlət quruculuğu, demokratik islahatlar nəticəsində cəmiyyətimizin "güzgüsü" olan, ictimai-siyasi düşüncə tərzini formalaşdıran, Azərbaycan xalqının milli kimliyini dünya xalqlarına nümayiş etdirə biləcək medianın əsasları yarandı.

Mətbuat orqanlarının azad fəaliyyətinə yaradılan şərait, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər müstəqil mətbutın inkişafında yeni dönəmin başlanğıcını qoydu.

XXI informasiya əsrində mətbuatın inkişafı məsələləri həmişə ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Ulu Öndər, mətbuatın maneəsiz fəaliyyəti, dünya təcrübəsindən bəhrələnməsi, xüsusilə kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, o cümlədən jurnalistlətin peşə səviyyəsinin yüksəldilməsi və hüquqlarının qorunması üçün bütün zəruri addımları atdı və tədbirlər həyata keçirdi. Qısa bir müddət ərzində media sahəsində böyük irəliləyiş müşahidə olundu. Yeni qəzetlər, kütləvi informasiya vasitələri, özəl televiziyalar yarandı.

Söz və fikir azadlığının təmin edilməsini 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası da hüquqi baxımdan təsdiqlədi. Konstitusiyada mətbuata verilən qiymət öz əksini tapdı: "Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və məlumat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir". "Azərbaycan Respublikasında söz, fikir

və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” 1998-ci ildə imzalanan Fərman ölkə mətbuatının inkişaf tarixində mühüm hadisə idə. Həmin ildə senzuranın ləğvi doğrudan da böyük və tarixi bir addım oldu. O vaxt MDB məkanında Azərbaycan senzuranın ləğvini irəli sürən birinci ölkə idi. 1999-cu ilin sonunda qəbul olunan “Kütləvi informasiya vasitələri haqqında” yeni qanun mətbuatda demokratik prinsiplərin daha da möhkəmləndirilməsinə xidmət etdi. Bu sənəd Azərbaycanda mətbuatın inkişafına mane olan bir sıra bürokratik əngəllərin aradan qaldırılmasına yol açdı. Dövlət qeydiyyatı ləğv olundu və yeni mətbuat orqanlarının təsis olunması prosedurası asanlaşdırıldı. 2000-ci ilin martında ulu öndər Heydər Əliyevin Sərəncamı ilə “2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqamı” təsdiq olundu, Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı. Daha sonra, 2003-cü ildə Mətbuat Şurası yaradıldı.

Heydər Əliyev çox yaxşı bilirdi ki, söz azadlığı ölkədə demokratiyanın inkişafı və hüquqi dövlətin qurulması üçün ən vacib məsələlərdən biridir. Söz azadlığını, demokratiyanın inkişafını, hüquqi dövlətin qurulmasını Azərbaycanda çox vacib sayan Ümummilli Lider mətbuat işçilərinə müraciət edərək deyirdi: “İndi yeni tarix başlanmışdır. Yeni tarix Azərbaycanın müstəqilliyi ilə əlaqədar olan tarixdir. Yeni jurnalistlər nəsli gəldi. Bu da çox gözəldir. Ancaq həm keçmişdən qalanlar, həm də yeni gələnlər – hamısı çalışmalıdır ki, bizim informasiya orqanlarını, mətbuatı, qəzetlərimizi cazibədar etsinlər. Sensasiyalı materiallar verməklə yox, həqiqəti açıq-aydın aşkara çıxarmaqla”.

